# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 dekabr 2024-cü il, cümə
№ 225 (6811)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



## İlham Əliyev: Ermənistan İcma ilə danışıqlara başlamalıdır!



## Tarixi ədalətsizliyə son!

Bax səh. 2

### 51 ölkədən 100-dən çox nümayəndə

## Ədalət, sülh və barışıq mübarizəsi

Bax səh. 3



Bax səh. 4

## YAP Mərkəzi Aparatında müşavirə keçirilib

## Qərb diplomatlarının növbəti ucuz "şousu"

Hazırda beynəlxalq münasibətlər sistemində dərin böhran mövcuddur. Bu gün dünyada beynəlxalq nizam pozulub, beynəlxalq hüquq normaları işləmir. Belə olan halda bir sıra hegemon dövlətlər digər xalqlara münasibətdə öz maraqları baxımından yanaşırlar. Qərbin və onun təsir dairəsində olan beynəlxalq təşkilatların geosiyasi ambisiyalara söykənən maraqları da dünyada ciddi təhdidlər yaradır. Həmin dairələrin yanaşmasında özünü göstərən başlıca tendensiyalardan biri də ikili standartlara əsaslanan mövqedir.

Məlumdur ki, ərazi bütövlüyünü və suverenliyini öz gücünə bərpa edən Azərbaycan dövləti Cənubi...

Bax səh. 5



Bax səh. 4

## YAP və AK Parti sədrlərinin müavinləri arasında görüş keçirilib

## 300 uşağın iştirakı ilə...

Ötən gün Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu işə başlayıb. Forum Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə baş tutub.

**Türkiyəli uşaqlar da iştirak ediblər**

"Uşaqlar və ekologiya" mövzusuna həsr olunmuş forumda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbir zamanı "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş və "Azərbaycan uşaqları" mövzusunda videoçarxlar nümayiş etdirilib. Daha sonra Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər...

Bax səh. 5

## Fransa və Niderlandın müstəmləkəçiliyinə qarşı...

Azərbaycan müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizə aparan xalqları dəstəkləyir. Dövlətimiz bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edib. Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının ötən il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb...

Bax səh. 5

## ABŞ-ın "yumşaq güc" toru...

Yer kürəsini qlobal müharibənin bir addımlığına gətirib çıxaranlar "mütləq güc"ə çevrilmək üçün bütün vasitələrə əl atırlar. Ötən əsrin sonlarından etibarən bu məqsədlə müxtəlif yollardan istifadə edən dövlətlər bəzən sərt, bəzən isə yumşaq vasitələrlə öz niyyətlərin çatmağı hədəfləyiblər - xüsusilə, ABŞ illərlə Avrasiyanın bütün regionlarına təsir imkanlarını araşdırıb. ABŞ-ın xarici siyasət kursunun ən mühüm detallarından biri sayılan "nəzarət və təsiretmə" özünü fərqli ştrixlərlə büruzə verib. "Təsir imkanları" axtarışları hər zaman fərqli istiqamətlərə, fərqli vasitələrə əsaslanıb:

- Bəzən xəyanətkar siyasi partiyalarla...

Bax səh. 6

## Qərb mövqeyini dəyişir

Bax səh. 7

## "Rəqəmsal qızıl" valyuta bazarını gərginləşdirir



Bax səh. 7

## Ən qısa "ömürlü" baş nazir...



Bax səh. 7



### "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda Bakı şəhərində təşkil etdiyi II beynəlxalq konfransda salamlayıram.

Hazırda dünyada 120 milyondan çox insan məcburi köçürülmə problemi ilə qarşılaşmışdır və beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan bu problemin effektiv həlli mümkünsüzdür.

# İlham Əliyev: Ermənistan İcma ilə danışıqlara başlamalıdır!

Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi - tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıtmış, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurmuşdur.

Bu tarixi-mədəni abidələr arasında yalnız Azərbaycan memarlığının və İslam mədəniyyətinin parlaq nümunələrindən biri olan Göy Məscid salamat qalmışdır. Lakin Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir.

Ermənistan bununla da kifayətlənməmiş, Azərbaycana qarşı hərbi təcavüzə əl ataraq onun ərazilərini işğal etmiş, etnik təmizləmə törətmiş, şəhər və kəndləri dağıtmış, talan etmiş, torpaqlarımızı saysız-hesabsız minalarla çirkləndirmişdir.

Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır. 2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda "Böyük Qayıdışa dair Dövlət Proqramı" uğurla icra edilir.

Təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik "böyük Ermənistan" xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir.

Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır. Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir.

Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırmış, lakin qarşı tərəf bundan imtina etmişdir. Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır. Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir.

Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir. Uğurla həyata keçirilən Qayıdış Konsepsiyasına əsaslanan bu təşəbbüslər Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə böyük töhfələr verəcəkdir.

Müxtəlif vaxtlarda dədə-baba torpaqlarından zorla köçürülmüş, hazırda Azərbaycanda və dünyanın bir sıra ölkələrində məskunlaşmış minlərlə Qərbi Azərbaycan əsilli şəxsin hüquqlarının müdafiəsinə həsr edilmiş konfransın işinə uğurlar arzulayıram.

Əminəm ki, Azərbaycan xalqının zaman-zaman məruz qaldığı deportasiyalar barədə həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran bu beynəlxalq konfrans yaxın gələcəkdə qayıdış hüququ və dünyada köçkünlük problemi ilə bağlı fikir mübadiləsi aparılacaq önəmli beynəlxalq dialoq platformasına çevriləcəkdir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

İnsan hüquqlarına və əsas azadlıqlarına zidd olaraq Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində öz doğma torpaqlarından qovulmuş köklü Qərbi Azərbaycan əhalisinin hüquqlarının müdafiəsi və həmin ərazilərdə yaratdığı maddi mədəni irsin təbliği sahəsində səmərəli fəaliyyətlərinə görə:

1. Aşağıdakı şəxslər təltif edilsinlər:

"Şöhrət" ordeni ilə

Əliyev Fikrət Əhmədəli oğlu

"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə

Seyidzadə Dilarə Bağır qızı

Şadlinski Vaqif Bilas oğlu.

2. Həsən Zal oğlu Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

## Qərbi Azərbaycan İcmasının Fəxri üzvlük sertifikatları təqdim edilib















"Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransda Qərbi Azərbaycan İcmasının Fəxri üzvlük sertifikatları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, sertifikatlar aşağıdakı şəxslərə verilib:

1. Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu;
2. İrəvan xanı Hüseynəli xanın nəslinin nümayəndəsi Əmir Əli Sərdar İrəvani;
3. Türkiyə Böyük Millət Məclisinin üzvü, Ədalət və İnkişaf Partiyasının sədr müavini Zafer Sırakaya;
4. Qərargahı Brüsseldə yerləşən Ümumdünya Pan-Afrika Qadın Liderləri Hərəkatının Baş katibi Aişa Başa;
5. Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım;
6. İsveçrədə fəaliyyət göstərən Su, Ətraf Mühit və Sağlamlıq Qlobal İnstitutunun təsisçisi və baş direktoru, İsveçrə Su Tərəfdaşlığı və Asiya Su Şurasının üzvü Nidal Salim;
7. Türkiyə Böyük Millət Məclisinin üzvü Cantürk Alagöz;
8. Amerikan Dini Azadlıq Mərkəzinin rəhbəri Cannah Skott;
9. Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Orhan Erdem;
10. Rumıniyada fəaliyyət göstərən İncəsənət və İrs Assosiasiyasının prezidenti Nikoleta Zaqura;
11. Şimali Kipr Türk Cümhuriyyəti Prezidentinin beynəlxalq əlaqələr və diplomatiya üzrə xüsusi müşaviri Hüseyin İşıksal;
12. Qazaxıstanın Mədəniyyət və Turizm Nazirliyi nəzdində Tətbiqi Etnosiyasi Tədqiqatlar İnstitutunun direktoru, keçmiş səfir Talqat Kaliyev;
13. Suxumi Dövlət Universitetinin elmi jurnalının redaktoru, AMEA-nın A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun fəxri doktoru, Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif olunan Quram Marxuli;
14. Türkiyədə Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzinin müdiri Yaşar Sarı;
15. "Economyfirst Limited London" şirkətinin direktoru, tanınmış jurnalist Klaus Peter Ralf Yürgens;
16. İtaliyanın beynəlxalq məsələlər üzrə "Opinio Juris - Hüquq və Siyasət İcmalı" jurnalının baş redaktoru və Strasburqda Avropa Gəncləri Beyin Mərkəzinin tədqiqatçısı Valentina Chabert.

# Tarixi ədalətsizliyə son!

## İlham Əliyev: Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar

Qalib Azərbaycan daha bir ümummilli ideyamızın reallaşmasına - zamanında indiki Ermənistanın yerləşdiyi Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın ləyaqətli şəkildə tarixi yurd yerlərinə qayıdışına addım-addım yaxınlaşır. Dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcmasının (QAİ) "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfrans keçirilib. Prezident İlham Əliyev tədbir iştirakçılarına ünvanladığı məktubunda vurğulayıb ki, Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar.

## Yüz minlərlə azərbaycanlının faciəsinə səbəb olan dəhşətli deportasiyalar

Azərbaycanlıların doğma yurd yerlərindən çıxarılması prosesi xüsusilə ötən əsrin əvvəllərindən başlayaraq kütləvi hal alıb. XX yüzillikdə soydaşlarımız düz 3 dəfə deportasiyaya məruz qalıblar. 1918-ci ildə baş verən birinci deportasiya zamanı qədim Azərbaycan şəhəri olan İrəvan zorla Ermənistana verilib. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə digər tarixi torpağımız Zəngəzur Azərbaycandan alınaraq Ermənistana birləşdirilib. Bundan sonra 1948-1953-cü illər deportasiyası gəlir.



Qərbi Azərbaycandan soydaşlarımızın XX yüzillikdə sonuncu deportasiyası ötən əsrin səksəninci illərinin sonlarına təsadüf edir. Həmin dövrədək soydaşlarımız Ermənistanın 300-dən çox şəhər və kəndində məskunlaşmışdılar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı. "Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir", - deyə Prezident İlham Əiyev vurğulayıb.

## Ermənistanın dözümsüzlüyü və irqçiliyi

Ən qəddar formalarda həyata keçirilən deportasiyalar nəticəsində yalnız insanlar faciələrlə üzləşməmişlər. Həmçinin tarixi abidələrimiz, mədəni-dini irs nümunələrimiz də erməni vandalizminə məruz qalıb. Ermənilər tarixi ərazilərimizdə azərbaycanlı izlərini itirməkdən ötrü ən ağlagəlməz vasitələrə əl atıblar. Hətta qəbiristanlıqlar, məscidlər belə dağıdılıb. O cümlədən UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurulub. Xalqımızın Ermənistan ərazisində yaratdığı mədəni irs nümunələrindən yalnız Göy Məscid günümüzə qədər salamat qalıb. Lakin bu abidəyə münasibətdə də erməni xisləti ortadadır. Belə ki, Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Prezident İlham Əliyev bildirib ki, regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir.

Bütün bunlarla kifayətlənməyən Ermənistan ötən əsrin doxsanıncı illərinin əvvəllərindən etibarən Azərbaycana qarşı elan olunmayan müharibəyə başlayıb və havadarlarının dəstəyi ilə torpaqlarımızın 20 faizini işğal edib. Bu işğal nəticəsində də xalqımız etnik təmizləməyə məruz qalıb, şəhər və kəndlərimiz, mədəni abidələrimiz dağıdılıb, sərvətlərimiz talanıb. Azərbaycan bu ədalətsizliyə, beynəlxalq hüququn pozulmasına öz gücünə son qoymağı bacardı.




## Sırf insan haqları məsələsi

Məktubda da vurğulandığı kimi, təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik "böyük Ermənistan" xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir. O cümlədən Ermənistan soydaşlarımızın yurd yerlərinə qayıdış hüququnu tanımaq istəmir. Rəsmi İrəvan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır.

Qalib Azərbaycanın heç bir qonşu dövlətə qarşı ərazi iddiası yoxdur. Burada da söhbət Ermənistana qarşı ərazi iddialarından deyil, yüz minlərlə azərbaycanlını tarixi yurd yerlərinə qayıdışına şərait yaradılmasından gedir. Qayıdış hüququ beynəlxalq konvensiyalarda təsbit olunub.

QAİ-nin məqsədi də Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir." Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir", - deyə dövlətimizin başçısı vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# Qüdrətli Azərbaycanı sizə əmanət edəcəyik

## Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun iştirakçılarına

Hörmətli Forum iştirakçıları!

Əziz uşaqlar!

Sizi Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayır, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

Uşaqlar cəmiyyətin sabahıdır. Bizim üzərimizə düşən əsas vəzifə onlara aydın səma altında etibarlı gələcək bəxş etməkdir. Ölkəmizdə uşaqlara hərtərəfli qayğının dövlət siyasətinin tərkib hissəsi olması Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Bu istiqamətdə bir sıra mühüm işlər görülmüş və görülməkdədir. Uşaqlarımız yüksək təhsil almaq, bacarıqlarını inkişaf etdirmək və istedadlarını üzə çıxara bilmək üçün hər cür imkana malikdirlər. Forumunuzun ənənəvi şəkil alması da Azərbaycanda uşaq hüquqlarına diqqətin bariz təzahürlərindəndir.

Builki Forum "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilir. Onun həsr olunduğu uşaqlar və ekologiya mövzusu aktuallığı ilə seçilir və övladlarımızın təhlükəsiz ətraf mühitdə yaşamaları baxımından xüsusi məna daşıyır. Bu yaxınlarda Azərbaycan nəhəng miqyaslı beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti 29-cu sessiyasına ev sahibliyi etdi. Konfransda ətraf mühit amillərinin uşaqların sağlamlığına təsiri, uşaqlar naminə iqlim fəaliyyətinin gücləndirilməsi məsələləri geniş müzakirə olundu. Çünki Yer üzündə bütün uşaqların sağlam və təmiz dünyaya, yaşıl gələcəyə ehtiyacı var və onlar buna layiqdirlər.



Əziz iştirakçılar!

Siz müstəqillik salnaməmizə şanlı səhifələrin yazıldığı günlərin şahidi olan ən yeni nəsli burada təmsil edirsiniz. Sizin şəxsinizdə Azərbaycan uşaqlarının hamısına üz tutub deyirəm: xoşbəxtsiniz ki, parlaq mədəniyyət yaratmış qədim və böyük bir xalqın övladlarısınız. Siz həm də gələcəyimizin təminatısınız. Qüdrətli Azərbaycanı məhz sizə əmanət edəcəyik. Siz bizim üçün çox dəyərlisiniz.

İnanıram ki, Forum çərçivəsində aparacağınız əhatəli fikir mübadiləsi və qəbul edəcəyiniz qərarlar uşaqlarla bağlı dövlət siyasətimizin bundan sonra da uğurla gerçəkləşdirilməsi işinə öz töhfəsini verəcəkdir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

# Könüllülük hərəkatı Azərbaycan gənclərinin vahid məqsəd ətrafında hazırkı uğurlu fəaliyyətinin təcəssümüdür

## Azərbaycan könüllülərinin VII həmrəylik forumunun iştirakçılarına

Əziz gənclər!

Sizi - Azərbaycan könüllülərinin VII həmrəylik forumunun iştirakçılarını salamlayır və Beynəlxalq Könüllülər Günü münasibətilə təbrik edirəm.

Ümummilli Lider Heydər Əliyevin xeyir-duası ilə ötən əsrin 90-cı illərindən ölkəmizdə xüsusi vüsət almağa başlamış və milli-mənəvi dəyərlərə bağlılığın, Vətənə xidmətin nümunəsinə çevrilmiş könüllülük hərəkatı Azərbaycan gənclərinin vahid məqsəd ətrafında hazırkı uğurlu fəaliyyətinin təcəssümüdür. Dövlətimizin hərtərəfli dəstəyi sayəsində sıraları durmadan genişlənən bu hərəkat yüksəliş yolu ilə irəliləyərək indiki inkişaf səviyyəsinə çatmış və cəmiyyət həyatının bütün sahələrinə nüfuz etməyə müvəffəq olmuşdur.

Forumunuzun "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkili xüsusi əhəmiyyət kəsb edir. Belə ki, əməli fəaliyyətlərində daim xeyirxahlıq, fədakarlıq və təmənnasız yardım kimi ali bəşəri keyfiyyətləri rəhbər tutan könüllülərimiz təbiətin və ətraf mühitin qorunması istiqamətində vətəndaşlar arasında maarifləndirmə işinə böyük töhfə verirlər. Onlar ölkəmizdə dünyanın ən irimiqyaslı və mühüm tədbirlərindən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi günlərdə vəzifələrinin öhdəsindən layiqincə gəldilər.

Dövlət suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpası nəticəsində müstəqillik tariximizin artıq yeni mərhələsini yaşayırıq. İşğaldan azad olunmuş ərazilərimizdə həyatın sürətlə yenidən canlandırılması üçün misilsiz quruculuq işləri aparılmaqdadır. Gənclər siyasətinin başlıca prinsiplərinə uyğun innovativ sosial təşəbbüsləri ilə ölkəmizin davamlı tərəqqisinə xidmət göstərən könüllülərimiz Böyük Qayıdış prosesində də fəal iştirak edirlər.

İnanıram ki, siz milli dövlətçiliyə dərin sədaqəti bundan sonra da həyatınızın amalı biləcək, Vətənimizin qüdrətinin artırılması naminə bilik və bacarığınızı əsirgəməyəcəksiniz. Hər birinizə gələcək işlərinizdə nailiyyətlər arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

### 51 ölkədən 100-dən çox nümayəndə

# Ədalət, sülh və barışıq mübarizəsi

## Bakıda Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın açılışı olub

Dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın açılışı olub. Tədbirdə zamanında indiki Ermənistanın yerləşdiyi Qərbi Azərbaycandan dəhşətli deportasiyalar nəticəsində zorla çıxarılmış azərbaycanlıların ləyaqətli və təhlükəsiz şəkildə tarixi yurd yerlərinə qayıdışı ilə bağlı aktual müzakirələr aparılıb. Konfransın açılışında Qərbi Azərbaycan İcması haqqında qısametrajlı film nümayiş etdirilib.

Sonra Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Konfrans öz işini panel müzakirələrlə davam etdirib.

Qeyd edək ki, Qərbi Azərbaycan İcmasının qayıdış hüququ mövzusunda təşkil etdiyi konfrans iki gün davam edəcək. Konfransda 51 ölkədən 100-dən çox nümayəndə iştirak edir.

## Soydaşlarımızın qayıdış hüququnun təmin edilməsi üçün vacib platforma




Konfransda çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri, Milli Məclisin deputatı Əziz Ələkbərli tədbirin Ermənistandan azərbaycanlıların zorla çıxarılmasına, tarixi və mədəni irsimizə vurulmuş zərərlərə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək, qayıdış hüququmuzun təmin edilməsi və ədalətli əsaslarla sülh və barışıq üzrə müzakirələr aparmaq üçün vacib bir platforma olduğunu bildirib.

O, Qərbi Azərbaycan İcması olaraq öz doğma yurdlarına qayıtmaq istəyən yüz minlərlə azərbaycanlının qayıdış hüququ uğrunda mübarizə apardığını deyib: "Təşkilatımız 1989-cu ildən fəaliyyət göstərir. Bu istiqamətdə gördüyümüz işlər Azərbaycan dövlətinin prinsipial və davamlı dəstəyi ilə həyata keçirilir. Xüsusilə 2022-ci ilin dekabr ayında İcmamızı ziyarət edən Prezident İlham Əliyevin İcmanın fəaliyyətinə göstərdiyi diqqət səylərimizi daha da gücləndirmək üçün bizi ruhlandırıb. Prezident İlham Əliyevin konfrans iştirakçılarına bugünkü (dünənki - red.) müraciətində ifadə etdiyi dəstək və qiymətli tövsiyələr böyük əhəmiyyət kəsb edir. Müraciətdə haqq işimizə verilən yüksək dəyər İcmamızın hər bir üzvü üçün güclü motivasiya mənbəyidir", - deyə Ə.Ələkbərli diqqətə çatdırıb.

Ə.Ələkbərli vurğulayıb ki, Ermənistan öz ərazisində azərbaycanlıların hamısını ata-baba yurdlarından çıxarıb və bu gün Ermənistanda bir nəfər də azərbaycanlı qalmayıb. Ermənistan qəbiristanlıqlarımızı, mədəni və dini abidələrimizi məqsədyönlü şəkildə məhv edərək, maddi və qeyri-maddi mədəni irsimizə ciddi zərbə vurub. Adət-ənənələrimiz, sosial bağlarımız və həyat tərzimiz böyük ziyan görüb.

"Ermənistan ölkə ərazisindəki Azərbaycan mədəni irsinin vəziyyətinin araşdırılması üçün UNESCO-nun missiya göndərməsinə icazə vermir. Ermənistanın monoetnik cəmiyyət yaratmaq siyasəti bölgənin zəngin etnik və dini müxtəliflik ənənələri və tarixi ilə ziddiyyət təşkil edir. Bu tarixi faktları sadalamaqda məqsədimiz ixtilafı davam etdirmək deyil, ədalət, sülh və barışıq yolunda apardığımız mübarizənin başlanğıc nöqtəsini izah etməkdir. Biz doğma torpaqlarımıza sülh yolu ilə qayıtmaq məqsədinə sadiqik və beynəlxalq hüququn norma və prinsiplərinə hörmət edirik", - deyə QAİ rəsmisi vurğulayıb.



## Azərbaycanlıların geri qayıtmalarının tarixi və hüquqi əsasları

Qərbi Azərbaycan İcmasının təşkil etdiyi "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" adlı II beynəlxalq konfrans çərçivəsində "Ermənistandan zorla çıxarılmış azərbaycanlıların geri qayıtmaq hüququnun tarixi və hüquqi əsaslarına baxış" mövzusunda panel sessiyası keçirilib.

Milli Məclisin deputatı Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən paneldə çıxış edən Pakistanın Hüquq və Ədalət Komissiyasının katibi Riffat İnam Butt Qərbi azərbaycanlıların öz torpaqlarından didərgin salınmasının açıq-aşkar insan hüquqlarının pozulması olduğunu diqqətə çatdırıb. O bildirib ki, bu məsələlərlə bağlı beynəlxalq komissiya yaradılmalıdır: "Komissiyanın yaradılması insanların kollektiv yaddaşının saxlanılması üçün mühüm rol oynaya bilər. Eyni zamanda, biz deportasiya proqramları da yaratmalıyıq. Bununla da insanlara kömək edilməlidir ki, öz ata-baba yurdlarına qayıda bilsinlər".



Almaniyanın Frankfurt Universitetinin müəllimi Mixael Raynhard Hess çıxışında müəyyən dövrlərdə minlərlə azərbaycanlının qanunsuz şəkildə öz yurdlarından qovulduğunu deyib. Vurğulayıb ki, Ermənistanın qeyri-rəsmi təşkilatları və rəsmi dövlət strukturları bu prosesdə iştirak ediblər. Azərbaycanlılara qarşı 20-ci əsrdə ciddi şəkildə zorakı deportasiya siyasəti tətbiq olunub.




Paneldə digər çıxış edənlər Gürcüstanın Suxumi Dövlət Universitetinin professoru, politoloq, tarixçi Quram Marxuliya və ABŞ-ın Qrinsboro Universitetinin Sülh və Münaqişələrin Tədqiqatları Departamentinin professoru Əli Əsgərov azərbaycanlıların tarixi Azərbaycan ərazisindən qovulduğunu və yerlərinə ermənilərin yerləşdirildiyini deyiblər.

## Türkiyə həmişə Azərbaycanın yanındadır

Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu çıxışında Ermənistanın bölgədə davamlı sülh üçün Azərbaycanın xoşniyyətli addımlarına müsbət cavab verməli olduğunu bildirərək deyib: "Cənubi Qafqazı sülh bölgəsinə çevirə bilərik. Silah alıb təkrar hazırlıq işləri görməyin, qonşu dövlətin torpaqlarına təkrar göz dikməyin bir faydası olmadığını hər kəs bilməlidir. 30 illik ədalətsizliyin ardından davamlı sülhün qurulmasının çətin olacağını bilirik. Ancaq Türkiyə olaraq, bölgədə sülh üçün bundan sonra da əlimizdən gələni edəcəyik. Türkiyə olaraq Azərbaycanın həmişə yanında olduq. Azərbaycan təkcə qardaşımız olduğu üçün yox, həm də haqlı olduğu üçün yanındayıq".

O diqqətə çatdırıb ki, Qərbi Azərbaycan İcmasının fəaliyyəti beynəlxalq hüquqa tam uyğundur, bu, torpaq deyil, insan haqları məsələsidir. "Ermənistanın ərazi bütövlüyünə tam hörmətlə yanaşılsa da, rəsmi İrəvan səmimi müraciətlərə hələ də cavab vermir. Ermənistanın Qarabağı işğal etməsi böyük ağrılara səbəb olub. Bir milyondan çox azərbaycanlı yurd-yuvalarından edilib, onların doğma torpaqlarına qayıtması təmin olunmalıdır. Həmçinin Ermənistanın UNESCO-nun missiyasına icazə verməməsi təəssüf doğurur. Biz həmişə ədalətin qalib gələcəyinə inandıq, nəticədə Azərbaycan su-




verenliyini tam təmin etdi. Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdə bu gün ciddi təmizləmə işləri və bərpa-quruculuq fəaliyyətləri həyata keçirilir", - deyə M.Çavuşoğlu vurğulayıb.




## Barışıq və sülh quruculuğu

Konfrans çərçivəsində "Münaqişələrdən təsirlənən regionlarda barışıq və sülh quruculuğu səyləri" mövzusunda panel sessiyası təşkil edilib. Panel Qərbi Azərbaycan İcmasının üzvü, Milli Məclisin deputatı Qaya Məmmədovun moderatorluğu ilə keçirilib.

Paneldə çıxış edən Pakistan İslam Respublikası Milli Assambleyasının üzvü Ammar Əhməd Xan Leqari, Madrid Muxtar Universitetinin İqtisadi İdarəetmə Məktəbinin Elmi Məsləhət Komitəsinin üzvü Uriarte Sançes Karlos, ADA Universitetində İnkişaf və Diplomatiya İnstitutunun nümayəndəsi Damyan Krnjeviç-Mişkoviç, Böyük Britaniyada "Sülhpərvər planet" qeyri-hökumət təşkilatının təsisçisi Lord Arnold Dunkan MakNeir və Amerika Dini Azadlıq Mərkəzinin baş direktoru Cannah Skott mövzu ətrafında fikir mübadiləsi aparıb, barışıq və sülh quruculuğu proseslərinin əhəmiyyətini vurğulayıblar.

Bildirilib ki, azərbaycanlılar və ermənilər sülh şəraitində yaşamalıdırlar. Belə ki, regionda sülhü bərqərar etmək çox mühüm məsələdir. Beynəlxalq ictimaiyyət zorla öz yurdlarından çıxarılmış azərbaycanlıların geri qayıtmaq hüququnun təmin olunması məsələsinə daha həssas yanaşmalı, regionda davamlı sülhün qurulması üçün bu hüququn həyata keçirilməsinə dəstək verməlidir.

Müzakirələr zamanı sülh quruculuğunun yalnız ədalətin bərpası şəraitində mümkün olduğu, zorla didərgin salınmış insanların hüquqlarının tanınmasının isə bu prosesin əsas komponentlərindən biri olduğu bildirilib. Panel iştirakçıları münaqişələrdən təsirlənən regionlarda davamlı sülhün bərqərar olunması üçün beynəlxalq səylərin gücləndirilməsinin əhəmiyyətini xüsusilə vurğulayıblar.

Çıxışçılar Bakıda keçirilən COP29 konfransına toxunaraq iqlim dəyişikliyi, ətraf mühitin qorunması istiqamətində keçirilən tədbirlər sırasında dünyada




insan hüquqları barədə konfransların təşkilinin əhəmiyyətindən bəhs ediblər. Həmçinin qeyd edilib ki, azərbaycanlıların etnik təmizləməyə məruz qalması səbəbindən Ermənistanda yaşayan azərbaycanlıların əmlak hüquqları da müzakirə mövzusudur.

Paneldə çıxışlar zamanı Ermənistanın nüvə elektrik stansiyasından istifadə etdiyini və bununla da nüvə materiallarının sızması təhlükəsi yarandığı qeyd olunub. Bildirilib ki, bu, nəinki Ermənistana, həm də Azərbaycana və qonşu ölkələrə təsir edir. Odur ki, heç kimin havanı çirkləndirmək hüquqi yoxdur.

*Mübariz FEYİZLİ*

# YAP Mərkəzi Aparatında müşavirə keçirilib





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar dekabrın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planında əks olunan əsas hərəkət və tədbirlərin vaxtında və mütəşəkkil həyata keçirilməsi ilə əlaqədar müzakirələr aparılıb, qanunvericiliyin tələblərinə ciddi riayət olunmasının zəruriliyi diqqətə çatdırılaraq qarşıda duran vəzifələrlə əlaqədar müvafiq tapşırıq və tövsiyələr verilib.

# YAP və AK Parti sədrlərinin müavinləri arasında görüş keçirilib






Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən ikinci beynəlxalq konfransda iştirak etmək məqsədilə Azərbaycana səfərə gələn Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin Xarici əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvü Zafer Sırakayanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə dekabrın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında görüş keçirilib.

Qonaqları salamlayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, əsrlərin sınağından şərəflə çıxan Azərbaycan-Türkiyə münasibətləri bu gün dünyada nümunəvi xarakter daşıyır. O, ortaq milli-mənəvi dəyərlər və köklü tarixi ənənələr üzərində təşəkkül tapmış, "bir millət, iki dövlət" prinsipinə, dostluğa və qardaşlığa əsaslanan ölkələrarası əlaqələrin dövlət başçılarının iradələri əsasında keyfiyyətcə yeni mərhələyə yüksələrək uğurla inkişaf etdiyini vurğulayıb.

Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətlərinin daha geniş coğrafiyada, o cümlədən Türk dünyasında dayanıqlı təhlükəsizliyə və çoxşaxəli əməkdaşlığa xidmət etdiyini söyləyən YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Türk Dövlətləri Təşkilatının müasir beynəlxalq münasibətlər sistemində rolunun artırılması və mövqeyinin möhkəmləndirilməsi mühüm strateji hədəf kimi hər iki ölkə üçün prioritetdir.

YAP Sədrinin müavini "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən ikinci beynəlxalq konfransın önəminə diqqəti cəlb edərək bildirib ki, soydaşlarımızın öz ata-baba torpaqlarından zorla çıxarılması beynəlxalq hüquq normalarının kobudcasına pozulmasıdır. O, həmvətənlərimizin Qərbi Azərbaycana qayıdışı məsələsinin bütün Türk dünyası üçün aktual və önəmli olduğunu söyləyib, qardaş ölkənin mənəvi-siyasi dəstəyinə görə minnətdarlığını ifadə edib.

Azərbaycan-Türkiyə birliyinin güclənməsində hakim partiyalar arasında münasibətlərin roluna diqqəti cəlb edən Tahir Budaqov 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında Əməkdaşlıq Protokolunun və 2023-cü il noyabrın 14-də YAP, AK Parti və Şimali Kipr Türk Cümhuriyyətinin Ulusal Birlik Partiyası arasında üçtərəfli Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyətindən bəhs edərək qarşıda duran vəzifələrin bugünədək uğurla icra olunduğunu məmnunluqla vurğulayıb. "Yeni çağırışlar müasir beynəlxalq münasibətlər sisteminin nüfuzlu dövlətləri olan Azərbaycan ilə Türkiyəni daha güclü olmağa vadar edir. Bu prosesdə YAP ilə AK Partinin də üzərinə mühüm vəzifələr düşür. Qardaş ölkələrin hakim siyasi partiyaları kimi məqsədyönlü fəaliyyətimizi ardıcıl şəkildə davam etdirməklə bütün hədəflərimizi inamla reallaşdıracağımıza heç bir şübhə yoxdur", - deyə YAP Sədrinin müavini əlavə edib.

AK Parti Sədrinin Xarici əlaqələr üzrə müavini, TBMM-in üzvü Zafer Sırakaya Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, Azərbaycan ilə Türkiyənin dost və qardaş ölkələr kimi daim bir-birinin yanında olduğunu, strateji müttəfiqlik münasibətlərindən irəli gələrək çoxşaxəli işbirliyini dərinləşdirdiyini qeyd edib.

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsini tarixi nailiyyət kimi xarakterizə edən Zafer Sırakaya hazırkı geostrateji reallıqların yeni çağırışlar yaratdığını və ölkələrimizin birgə təşəbbüsləri ilə görülən işlər nəticəsində milli maraqlarımızın uğurla təmin edildiyini vurğulayıb.

O, "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən ikinci beynəlxalq konfransın önəminə diqqəti cəlb edərək Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışı məsələsinin beynəlxalq hüququn təməl prinsiplərinə əsaslandığını bildirib. Zafer Sırakaya 51 ölkədən 100-dən çox nümayəndənin iştirak etdiyi beynəlxalq konfransın tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün çox önəmli platforma olduğunu bildirib.

AK Partinin Yeni Azərbaycan Partiyası ilə işbirliyinə böyük əhəmiyyət verdiyini xüsusi vurğulayan Z.Sırakaya qarşılıqlı səfərlər çərçivəsində keçirilən görüşlərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəminə diqqəti cəlb edib.

Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım isə iki qardaş ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişafının böyük məmnunluq doğurduğunu qeyd edib. O, Azərbaycan və Türkiyənin regionda sülh, sabitlik və inkişaf tərəfdarı olduğunu vurğulayıb.

Şamil Ayrım iki ölkə arasında müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın genişləndirilməsində həm parlamentlər, həm də hakim partiyalar arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını diqqətə çatdırıb.

Azərbaycanın beynəlxalq müstəvidə təşəbbüslərinin təqdirəlayiq olduğunu bildirən Şamil Ayrım ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a uğurla ev sahibliyi etdiyini xüsusi vurğulayıb. O, COP29 çərçivəsində qəbul olunan qərarların əhəmiyyətinə nəzər salaraq bu prosesi Azərbaycanın qlobal iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə müstəsna töhfəsi kimi dəyərləndirib.

Şamil Ayrım qeyd edib ki, Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdışı məsələsi beynəlxalq hüququn tələbi kimi dünya ictimaiyyətinin xüsusi diqqət mərkəzində olmalıdır: "Paytaxt Bakıda qayıdış hüququ ilə əlaqədar keçirilən beynəlxalq konfrans tarixi faktların və mövcud reallıqların dünyaya çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir", - deyə o əlavə edib.

AK Parti Xarici Əlaqələr Departamentinin Sədr müavini İbrahim Halil Korkmaz, Beynəlxalq Demokratlar Birliyinin sədri Cengiz Aygör və TBMM-in protokol əməkdaşı Türker Yenerin də iştirak etdiyi görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

# "Dinlə, məlumatlı ol, gələcəyinə sahib çıx!"





Dekabrın 5-də Salyan rayonunda "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, Narkomanlıq və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq "Dinlə, məlumatlı ol, gələcəyinə sahib çıx!" mövzusunda interaktiv təlim təşkil olunub.

Əvvəlcə tədbir iştirakçıları Salyan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə YAP Salyan rayon təşkilatı sədrinin müavini Aqşin Babayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Salyan Rayon İcra Hakimiyyəti başçısının müavini, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri Rəşad Cəbrayılov, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt Şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Azərbaycanda narkomaniya ilə qətiyyətli mübarizə aparılır. Bu istiqamətdə müxtəlif dövlət proqramları qəbul edilib və bir çox layihələr həyata keçirilib. Vurğulanıb ki, cəmiyyətdə, xüsusilə gənclər arasında zərərli vərdişlərin qarşısının alınması məqsədilə təbliğat işləri çox mühüm əhəmiyyət daşıyır. Yeniyetmə və gənclərin narkomaniyadan qorunması sağlam gələcəyin təmin olunması üçün əsas şərtlərdəndir.

Diqqətə çatdırılıb ki, tədbirin əsas məqsədi narkotik vasitələrdən istifadənin fəsadlarına dair maarifləndirmə işlərini gücləndirmək və gənc nəslin təhlükəli vərdişlərə aludə olmasının qarşısını almaqdır.

İnteraktiv formada davam etdirilən təlimdə iştirakçıların sualları cavablandırılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekunlaşıb.

# Qərb diplomatlarının növbəti ucuz "şousu"

## XİN: Məhkəmə proseslərinə müdaxilə hüquqi dövlətin əsas prinsipi olan qanunun aliliyinə ziddir

Hazırda beynəlxalq münasibətlər sistemində dərin böhran mövcuddur. Bu gün dünyada beynəlxalq nizam pozulub, beynəlxalq hüquq normaları işləmir. Belə olan halda bir sıra hegemon dövlətlər digər xalqlara münasibətdə öz maraqları baxımından yanaşırlar. Qərbin və onun təsir dairəsində olan beynəlxalq təşkilatların geosiyasi ambisiyalara söykənən maraqları da dünyada ciddi təhdidlər yaradır. Həmin dairələrin yanaşmasında özünü göstərən başlıca tendensiyalardan biri də ikili standartlara əsaslanan mövqedir.



Məlumdur ki, ərazi bütövlüyünü və suverenliyini öz gücünə bərpa edən Azərbaycan dövləti Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Bu amil, həm də dövlətimizin beynəlxalq münasibətlər sistemində nüfuzunu və mövqelərini gücləndirir. Təəssüf doğruran hal odur ki, Azərbaycan BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Qərbin təsir dairəsində olan beynəlxalq təşkilatlar ölkəmizə qarşı aqressiv münasibət sərgiləyirlər ki, bu da ikili standartların və riyakarlığın pik həddidir. Xüsusilə, dünyanın miqyası baxımından ən böyük tədbiri olan COP29 ərəfəsində müxtəlif beynəlxalq təşkilatlar və ölkələr dəfələrlə ölkəmizə qarşı əsassız və qeyri-obyektiv qətnamələr qəbul edib.

### İkili standartların növbəti nümunəsi

Hazırda bu proses davam etməkdədir. Belə ki, dekabrın 4-də Avropa İttifaqının Bakıdakı nümayəndəliyi Böyük Britaniya və İsveçrə səfirlikləri ilə birlikdə Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş qəbul təşkil edib. Tədbirdə "hüquq müdafiəçiləri", vətəndaş cəmiyyəti, media nümayəndələri və s. iştirak ediblər. Bu diplomatik missiyaların rəhbərləri, eləcə də ABŞ səfiri öz çıxışlarında insan hüquqlarının təminatında vətəndaş cəmiyyətinin rolunun vacibliyini qeyd ediblər. Onlar həmçinin deyiblər ki, guya Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyət noyabrda Bakıda keçirilən COP29 iqlim konfransı ilə bağlı gözləntilərin əksinə olaraq daha da "pisləşib". Onlar "siyasi məhbusları" azad etməyə çağırıblar. Tədbirdə hətta Azərbaycanda "LGBT icması" ilə bağlı vəziyyətin "pisləşməsi" də dərin məyusluqla ifadə edilib.

Lakin Azərbaycan Xarici İşlər Nazirliyi bu iddiaları qəbul etməyib. Belə ki, nazirliyin "X" sosial şəbəkəsindəki hesabında qeyd olunub: "Dekabrın 4-də Bakıda keçirilən tədbir zamanı Avropa İttifaqı (Aİ), eləcə də ABŞ, Böyük Britaniya və İsveçrə səfirlərinin Azərbaycanda "jurnalistlər" və "siyasi fəallar"ın saxlanması ittihamı ilə bağlı mütəşəkkil müdaxilələrini qəti şəkildə rədd edirik. Bu bəyanatlar Azərbaycan məhkəmə sisteminin müstəqilliyinə açıq şəkildə zərbə vurmaq cəhdidir. Məhkəmə proseslərinə müdaxilə hüquqi dövlətin əsas prinsipi olan qanunun aliliyinə ziddir".

### Qərb müxtəlif bəhanələrlə təzyiq etməyə çalışır

Ümumiyyətlə, Azərbaycan özünün xarici siyasətində Qərblə və beynəlxalq təşkilatlarla da tərəfdaşlıq, bərabərhüquqluluq, qarşılıqlı etimad prinsiplərinə əsaslanan əlaqələr qurmağa üstünlük verir. Lakin təəssüf ki, bu səmimi siyasət qarşı tərəfdən bəzən lazımınca qiymətləndirilmir.

Avropa İttifaqı və sözügedən dövlətlər 30 il Azərbaycana qarşı işğalçı siyasət yürütmüş və xalqımıza qarşı çoxsaylı müharibə cinayət törətmiş Ermənistana qarşı heç bir addım atmayıblar. Əksinə, işğalçı ölkənin baş nazirinin Avropa Parlamentinin toplantısına dəvət edilməsi, "təntənəli" qarşılanması və onun tribunasından çıxış etməsi sadəcə ikili standartların deyil, riyakarlığın zirvəsi hesab etmək olar. ABŞ Konqresində, Niderland parlamentində də dəfələrlə ölkəmizə qarşı əsassız və qeyri-obyektiv müzakirələr aparılıb, sənədlər qəbul edilib. O cümlədən, işğalçı Ermənistana qarşı indiyə kimi heç bir sənəd qəbul etməyən AŞPA bu ilin yanvarında müxtəlif bəhanələrlə Azərbaycan nümayəndə heyətini səs hüququndan məhrum etmək haqqında qərar qəbul edib. Eləcə də, ATƏT və BMT kimi beynəlxalq təşkilatlar Ermənistanın işğalçılıq siyasəti ilə əlaqədar ikili standartlardan çıxış edib, prinsipial mövqe nümayiş etdirməyib.

Əlbəttə ki, belə faktların sayını kifayət qədər artırmaq olar. Amma bir reallıq dəyişməzdir ki, Azərbaycan hər zaman ikili standartlara qarşı etiraz səsini ucaldıb. Bu gün Azərbaycan güclü dövlət olaraq müstəqil siyasətini davam etdirir. Hansısa beynəlxalq təşkilatların, dövlətlərin ikili standartları və qərəzli mövqeyi Azərbaycanın haqlı və ədalətli siyasətinə təsir edə bilməz. Bu mənada Avropa İttifaqının Bakıdakı nümayəndəliyində keçirilən tədbirdə Qərb ölkələrinin diplomatlarının Azərbaycanı tənqid etməsinin heç bir əsası yoxdur.

***Nardar BAYRAMLI***

# 300 uşağın iştirakı ilə...

## Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu keçirildi

Ötən gün Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu işə başlayıb. Forum Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə baş tutub.

**Türkiyəli uşaqlar da iştirak ediblər**

"Uşaqlar və ekologiya" mövzusuna həsr olunmuş forumda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbir zamanı "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş və "Azərbaycan uşaqları" mövzusunda videoçarxlar nümayiş etdirilib. Daha sonra Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətini oxuyub.







Aidiyyəti dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələrinin qatıldığı tədbirdə Azərbaycanın bütün şəhər və rayonlarından olan 300 uşaq, eləcə də Türkiyəni təmsil edən uşaqlar iştirak ediblər.

**Uşaqların təhsili ilə dayanıqlı mühit formalaşdıra bilərik**

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, forumda bugünümüzün və gələcəyimizin ən vacib mövzuları ətrafında müzakirə aparmaq, fikir və təşəbbüslərimizi bölüşmək, daha yaxşı, təhlükəsiz cəmiyyət qurmaq üçün səyləri birləşdirmək qürurvericidir və həm də gözəl imkandır. Hazırda Qarabağın işğaldan azad olunmuş torpaqlarının dirçəldilməsi, minalardan təmizlənməsi, yeni infrastrukturun yaradılması, yeni yaşayış məntəqələrinin salınması geniş vüsət alıb.

O, qeyd edib ki, 30 illik həsrətdən sonra keçmiş məcburi köçkün ailələri, onların uşaqları öz yurdlarına qayıdırlar. Aktiv məskunlaşma tədbirləri həyata keçirilir. Eyni zamanda, yeni iqtisadi, sosial layihələr reallaşdırılır və böyük yüksəliş müşahidə olunmaqdadır. Əlbəttə ki, bütün bu işlər bizi daha konkret hədəflər, daha irəliyə aparan məqsədlər uğrunda birləşməyə, sürətlə dəyişən reallıqları nəzərə alan siyasətlər müəyyənləşdirməyə çağırır. Yeni həyat yeni fürsətlər açdığı kimi, daha yeni, daha çevik və daha dinamik yeni əməkdaşlıq platformalarının yaranmasını tələb edir.

"Azərbaycanın bütün sosial, iqtisadi və mədəni nailiyyətlərini, bütün zənginliklərini, təbii zənginliklərini, sərvətlərini qorumaq, gələcək nəsillərə çatdırmaq bizim borcumuzdur. Ərazilərimiz üzərində suveren hüquqların təmin olunmasından sonra bu vəzifələri yerinə yetirmək üçün qarşımızda daha geniş imkanlar açılıb. Azad edilmiş torpaqlarımız daxil olmaqla, hazırda bütün ölkədə yaşıl enerji zonalarının salınması, ətraf mühitin bərpası və iqlim dəyişikliklərinə davamlı mexanizmlərin yaradılması prioritetlər sırasındadır. Çünki hazırkı dövrdə dünya üzrə iqlim dəyişiklikləri, təbii resursların tükənməsi və ətraf mühitin çirklənməsi böyük problemlərdir. Lakin inanırıq ki, ekoloji maarifləndirmə, uşaqların təhsili və onların ölkə həyatında, eləcə də beynəlxalq arenada bütün proseslərdə fəal iştirakının təmin edilməsi sayəsində daha faydalı və dayanıqlı bir mühit formalaşdıraraq, bunu gələcəyə daşıya bilərik. Bu səbəbdən də bugünkü forumun mövzusu uşaqlar və ekologiya kimi müəyyənləşib".

**Milli dəyərlərimizi yaşatmaq ən vacib çağırışlardandır**

Forumda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan xalqının qarşısında duran əsas məqsədlərdən biri də kimliyini qorumaq, mədəniyyətinə sahib çıxmaq və milli dəyərlərimizi yaşatmaqdır. "Biz həm də əmin olmalıyıq ki, onlar doğru-dürüst azərbaycanlılar olacaqlar. Yəni Azərbaycanın ailə dəyərlərinə hakim olacaqlar, öz həyat tərzlərini bu torpaqlarda yaşamış əvvəlki nəslin adət-ənənələrini həmin zəmanənin tələblərinə uyğunlaşmış formada davam etdirəcəklər. Bir sözlə, azərbaycanlı olmağa davam edəcəklər. Çünki bu, çox vacibdir. Düşünürəm ki, bu, hazırda xüsusilə azyaşlı uşaqlarımızın təlim-tərbiyəsi işlərində qarşıda duran ən vacib çağırışlardan biridir".

Qız uşaqlarının təhsilinin əhəmiyyətindən danışan nazir həmçinin qeyd edib: "Biz unutmamalıyıq ki, qız uşaqlarının, yeni gələcək anaların təhsili daha savadlı, bacarıqlı və güclü millət kimi formalaşmanın əsas amillərindən biridir".

**Gənclərin ekoloji problemlərin həllində rolu...**

Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev bildirib ki, gənc nəslin ekoloji problemlərə olan münasibəti təqdirəlayiqdir: "Gələcəkdə gənclərimiz bu sahədə daha fəal rol oynayaraq ekoloji hüquqları və təbiətin qorunmasını prioritet məsələ kimi qəbul edəcəklər. Onların iqlim dəyişikliyi ilə mübarizə prosesində aktiv iştirakı dünya miqyasında ətraf mühitin müdafiəsinə yönəlmiş addımların effektivliyini artıracaq".

**İqlim dəyişiklikləri uşaqlara birbaşa təsir göstərir**

UNICEF-in Azərbaycandakı nümayəndəsi Saca Faruq Abdullah isə bildirib ki, iqlim böhranı həm də uşaqların böhranı deməkdir. Çünki iqlim dəyişiklikləri uşaqlara birbaşa təsir göstərən amillərdən biridir.

İnsan kapitalının inkişafına yatırılan sərmayənin gələcəyə yönəlmiş sərmayə olduğunu vurğulayan S.F Abdullah bildirib ki, iqlim dəyişiklikləri ilə bağlı qlobal səviyyədə xəstəliklərin 88 faizi 5 yaşından aşağı uşaqların payına düşür: "İqlim dəyişikliklərinin ən çox diqqətdən kənarda qalan fəsadlarından biri onun təhsilə olan təsiridir. Daşqınlar və kəskin hava şəraiti uşaqların təhsilə çıxışını məhdudlaşdırır, onların məktəbə getmələrinə maneələr yaradır. Bunu nəzərə almaq olduqca vacibdir. Gənc qızların təhsillə təmin edilməsi və erkən yaşlardan bu sahəyə sərmayə qoyulması böyük əhəmiyyət daşıyır. Uşaqlar bu planetin varisləridir. Planetimizdə baş verən hadisələr onların gələcəyinə birbaşa təsir göstərir".

***Yeganə BAYRAMOVA***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə hazırlanmışdır**

# Fransa və Niderlandın müstəmləkəçiliyinə qarşı...

## "Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale" adlı konfrans keçiriləcək

Azərbaycan müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizə aparan xalqları dəstəkləyir. Dövlətimiz bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edib. Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının ötən il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb.




Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu ölkəmizdə, eləcə də xaricdə, o cümlədən BMT müstəvisində həmin xalqların hüquqları ilə bağlı çoxlu sayda beynəlxalq konfrans təşkil edib. Yeri gəlmişkən, dekabrın 6-da Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Fransa və Niderlandın müstəmləkəçiliyi altında olan Sen Martin adasına həsr olunmuş beynəlxalq konfrans keçiriləcək. "Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale" adlı konfransda müstəmləkəçiliyə qarşı mübarizə aparan və azad olmağa çalışan Sen Martin xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların rəhbərləri, parlamentin üzvləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak edəcəklər.

Konfransda Fransa və Niderlandın əsarəti altında olan və iki hakimiyyətin mövcud olduğu Sen Martin xalqının müstəmləkəçilikdən azad olmaq uğrunda apardığı mübarizə, habelə problemin aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması istiqamətində görülən işlər, beynəlxalq hüquqi mexanizmlər müzakirə olunacaq.

Qeyd edək ki, Sen Martin adası müstəmləkəçilik dövründə və ondan sonrakı müddətdə özünəməxsus xüsusiyyətləri ilə digər müstəmləkələrdən fərqlənir. Sen Martin adası həm Fransa, həm də Niderland tərəfindən müstəmləkə edilib və 1648-ci ildən bəri bu iki dövlət arasında bölünüb. Adanın fransız hissəsi Saint-Martin, Niderland hissəsi isə Sint Maarten adlanır. Bu iki imperiya adanın idarəçilik, mədəniyyət və hüquq sistemlərini özlərindən asılı vəziyyətə salıb. Adada müstəmləkəçilik irsi iqtisadi və siyasi sahələrdə davamlı olaraq təsirini göstərir. Fransa və Niderlandın güclü təsiri, Sen Martin xalqının öz müqəddəratını təyin etmək cəhdlərinə maneə yaradır.

Xatırladaq ki, Bakıda COP29 çərçivəsində də Fransa və ... Niderlandın Afrikadakı müstəmləkəs siaysətinə qarşı tədbir keçirilmişdi. "Müstəmləkəçiliyin Afrikada investisiya perspektivlərinə mənfi təsirləri" mövzusunda keçirilən tədbirdə Afrikada kolonial keçmişin yaratdığı dərin sosial-iqtisadi problemlər və onların qitədə investisiya imkanlarına mənfi təsiri müzakirə olunub. Tədbirdə Fransanın Afrikadakı keçmiş müstəmləkələrindən, digər fransız dənizaşırı ərazilərindən, Niderland koloniyalarından olan nümayəndələr, xarici və yerli jurnalistlər iştirak ediblər. Çıxışlarda müstəmləkəçilikdən miras qalan qeyri-bərabərlik, resursların ədalətsiz və qanunsuz istifadəsi, qitənin inkişafını ləngidən səbəblər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Tədbirdə müstəmləkəçiliyin hazırda planetimizin üzləşdiyi dağıdıcı iqlim böhranına mənfi təsirləri xüsusi vurğulanıb. Müstəmləkəçiliyin Afrika ölkələrinin, dənizaşırı ərazilərin artıq daha tez-tez üzləşdiyi dağıdıcı iqlim hadisələrinə dərin və davamlı mənfi təsirlərinin gözardı edilməsi şiddətlə qınanılıb. Müstəmləkəçiliyin Afrika ölkələrində, eləcə də dənizaşırı ərazilərdə bütün sahələrdə, o cümlədən iqtisadiyyatda, mədəniyyətdə, siyasətdə, ətraf mühitdə dərin mənfi izlər qoyduğu qeyd edilib. Bildirilib ki, müstəmləkəçiliyin bu ölkələrdə yaratdığı sosial və siyasi nizamsızlıq, iqtisadi istismar və yoxsullaşma, yerli xalqların mədəniyyətlərinin və milli kimliyinin itirilməsi, etnik bölünmə və icmalar arasında gərginliyin yaradılması siyasəti, ətraf mühitin deqradasiyası, iqtisadi və siyasi asılılığın mirası kimi bir çox mənfi təsirlər artıq dözülməz həddə çatıb.

Çıxışlarda qeyd olunub ki, müstəmləkəçiliyin əsas məqsədi Afrika ölkələrinin və dənizaşırı ərazilərin zəngin təbii ehtiyatlarını istismar etməkdir. Müstəmləkə istismarı ətraf mühiti çirkləndirən intensiv kənd təsərrüfatı və mədənçilik sahələrində daha ağır nəticələr doğurur. Monokultura torpağı tükəndirib, bəzi ölkələrdə və ərazilərdə səhralaşmaya səbəb olub. Müstəmləkə dövründə başlayan bu ekoloji deqradasiya bu gün də kənd təsərrüfatına və dolanışıq vasitələrinə təsir edir, ərzaq təhlükəsizliyi üçün ciddi təhdid yaradır.

Tədbir iştirakçıları Fransanın və Niderlandın müstəmləkəsi altında olan ölkə və ərazilərdə ətraf mühitə ziyan vuran bütün qeyri-qanuni fəaliyyətlərin dayandırılması, yerli xalqların hüquqlarına hörmətlə yanaşılması ilə bağlı çağırış etmişdilər.

Dekabrın 6-da keçiriləcək "Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale" adlı konfrans da Sen Martin xalqının öz gələcəyini müstəqil şəkildə müəyyən etməsi üçün beynəlxalq dəstəyin vacibliyinə dair çağırış platforması rolunu oynayacaq.

**Sen Martin adası həm Fransa, həm də Niderland tərəfindən müstəmləkə edilib və 1648-ci ildən bəri bu iki dövlət arasında bölünüb. Adanın fransız hissəsi Saint-Martin, Niderland hissəsi isə Sint Maarten adlanır. Bu iki imperiya adanın idarəçilik, mədəniyyət və hüquq sistemlərini özlərindən asılı vəziyyətə salıb. Adada müstəmləkəçilik irsi iqtisadi və siyasi sahələrdə davamlı olaraq təsirini göstərir. Fransa və Niderlandın güclü təsiri, Sen Martin xalqının öz müqəddəratını təyin etmək cəhdlərinə maneə yaradır**

***N.BAYRAMLI***

# Elnarə Akimovanın yeni kitabı çap olunub




Tənqidçi-ədəbiyyatşünas, filologiya elmlər doktoru, Milli Məclisin deputatı Elnarə Akimovanın "Azərbaycan uşaq ədəbiyyatı: tarixi təcrübəsi və müasir istiqamətləri" adlı yeni kitabı çap olunub. "Elm və təhsil" nəşriyyatında işıq üzü görən kitabın elmi redaktoru və ön sözün müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, rəyçiləri filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan və filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlıdır.

Kitabda çağdaş humanitar fikrinin kontekstində Azərbaycan uşaq ədəbiyyatının tarixi təcrübəsi - təşəkkülü, yaranması və inkişafı ümumiləşdirilir. "Uşaq ədəbiyyatı: tarixdən çağdaşlığa", "Klassika modern işığında", "Uşaq mətnləri diskurs kimi", "Uşaq ədəbiyyatında müharibə və zəfər duyğuları", "Dərsliklərin vəziyyəti: problemlər, qayğılar", "Müsahibələr: analitik müstəvidə", "Müzakirə saatı: söhbətlər, düşüncələr", "Uşaq ədəbiyyatında imzalar" adlı bölmələrdə sistemləşdirilən mətnlərdə uşaq ədəbiyyatının müasir istiqamətləri ilə bağlı dəyərləndirmə aparılır, müxtəlif uşaq ədəbiyyatı nümunələrinin poetikası, üslub və növ zənginliyi nəzəri analizə cəlb olunur, habelə Zəfər tariximizdən sonra uşaq ədəbiyyatının vardığı yeni hüdudlar tədqiqat predmetinə çevrilir.

Kitab humanitar fikir adamlarına, elm, ədəbiyyat və geniş oxucu auditoriyalarına ünvanlanmışdır.

# Qərb mövqeyini dəyişir

## Ukraynanın sülh "planları"nda güzəşt limiti...

2024-cü il sona yaxınlaşdıqca Qərbin Ukrayna - Rusiya müharibəsinə baxışı dəyişir. Dünənə qədər sülh çağırışları əsasən Şərqi Avropa ölkələrindən - Türkiyə, Macarıstan, Serbiya, Slovakiyadan səslənirdisə, artıq bu cərgə daha da "sıxlaşır". Xüsusilə Almaniyanın prosesə aktiv şəkildə qoşulması və cəmisi bir neçə gün fasilə ilə həm Kremllə danışması, həm də Kiyevi ziyarət etməsi danışıqlar prosesi ilə bağlı ümidləri artırıb. Sülh prosesi demək olar ki, aktiv fazaya qədəm qoyur.

Təbii ki, bu məsələdə ABŞ-ın yeni prezidenti Donald Trampın mövqeyi əsaslı rol oynamaqdadır. Trampın yeni ildən Ukraynaya silah tədarükünün azaldılacağını, maliyyə yardımlarının minimuma endiriləcəyini və humanitar məqsəddən kənara çıxmayacağını deməsi Mərkəzi və Qərbi Avropanı da "hərəkətə" gətirib. Danışıqlar prosesinin formalaşmasına "məsul" edilmiş Almaniya kanslerinin G7 iclasında nümayiş etdirdiyi mövqe, üstəlik Ukraynanın NATO-ya qapılarının müvəqqəti də olsa "bağlanması" deyilənləri təsdiqləyir.

## İtaliya da müharibəni bitirmək arzusunda olanlara qoşuldu

### Romadan Kiyevə çağırış: Güzəştə getməlisən...

Yeri gəlmişkən, məsələ ilə bağlı münasibətini bildirən tərəflər "şərtsiz sülh danışıqları" formulunu önə çəkirlər. Bu isə onu deməyə əsas verir ki, artıq Ukrayna-Rusiya müharibəsi ilə bağlı beynəlxalq təzyiqlər artmaqdadır. Məsələn, İtaliyanın xarici işlər naziri və baş nazirin müavini Antonio Tayani Ukraynanın sülhün təmin edilməsi məqsədilə müəyyən güzəştlərə getməli olduğunu bəyan edib. RAI-1 telekanalına verdiyi müsahibədə Tayani vəziyyətin daha da ağırlaşmasının qarşısını almaq üçün Ukraynanın diplomatik addımlar atmasının vacib olduğunu vurğulayıb. "Əgər ruslar irəliləməyə davam edərsə, Zelenski vəziyyətin daha da pisləşməsini istəmirsə, güzəştlərə getməli olacaq", - deyə nazir qeyd edib.

Tayani həmçinin bildirib ki, müharibə sonsuzadək davam edə bilməz və tərəflər gec-tez masaya oturaraq hərbi əməliyyatlara son verməlidirlər. "Müharibə 2025-ci ildə, Zelenskinin də dediyi kimi başa çatmalıdır", - deyə İtaliyanın baş nazir müavini əlavə edib.

İtaliyalı siyasətçinin bu mövqeyi isə Qərbin siyasi analitikləri tərəfindən son dövrlərdə Rusiya-Ukrayna müharibəsi ilə bağlı ən realist çıxış kimi dəyərləndirilib. Xarici mətbuat Tayaninin fikirlərinin "hər kəsin demək istəyib deyə bilmədiyi" sözlər olduğunu yazıb.






Vurğulanmalıdır ki, iki ölkə arasında sülh prosesinin başlanması üçün ilk olaraq Türkiyə tərəfindən vasitəçilik təklif edilmişdi - hətta bu, müəyyən mənada baş vermişdi. Müharibənin başlamasından təxminən bir neçə gün sonra Türkiyənin Antalya şəhərində Rusiya, Ukrayna və Türkiyə XİN rəhbərlərinin iştirakı ilə üçtərəfli görüş keçirilmişdi - 1,5 saat davam edən görüş mühüm əhəmiyyət daşımaqla yanaşı, Rusiyanın xarici işlər naziri

### İlk təmasdan sonra...

Sergey Lavrov və Ukraynanın xarici işlər naziri Dmitri Kuleba arasındakı ilk canlı təmas kimi tarixə düşmüşdü.

Sonradan bir sıra dövlətlər oxşar cəhdlər etdilər - amma nəticə etibarı ilə sülh prosesi alınmadı. Təbii ki, burada Qərbin Ukraynanı silahlandırması və müharibəyə təhrik etməsi də mühüm rol oynadı.

### Orban da daxil olmaqla...

İtaliyanın XİN başçısının fikirləri isə növbəti sülh çağırışı kimi yadda qaldı. Qeyd edək ki, bir neçə ölkənin rəsmi şəxsi Ukraynanı sülh üçün güzəşt etməyə çağırmışdı - hətta ABŞ Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Mark Milley Ukraynanın müharibədə tam qələbə əldə etməsinin çətin olduğunu və soyuq müharibə mövsümündə danışıqlar üçün şərait yarana biləcəyini demişdi. O, bu məsələnin müzakirəyə açıq olduğunu vurğulayaraq Ukraynaya müvəqqəti güzəştlərə getməyin lazım ola biləcəyini bildirmişdi.

Eyni zamanda bəzi Avropa liderləri də Ukraynaya sülh danışıqlarına başlamağı təklif etmişdi - lakin, bu təkliflərə qarşı Ukrayna Prezidenti birmənalı olaraq reaksiya verərək, ölkəsinin təslimçiliyə getməyəcəyini, bu təkliflərin qəbulolunmazlığını bildirmişdi.

Macarıstanın Baş naziri Viktor Orban da Ukraynanı sülh üçün güzəşt etməyə çağırmışdı - Orban bir neçə dəfə bildirmişdi ki, Ukrayna və Rusiya arasında müharibə uzun müddət davam edə bilər və yaranan vəziyyət yalnız diplomatik yollarla həll olunmalıdır. Orban, həmçinin, Qərbin və NATO-nun siyasətlərinin müharibəni uzatma riskini artırdığını ifadə etmişdi. O əlavə etmişdi ki, bəzi hallarda Ukraynanın ərazi itkilərinə görə güzəşt etməsi belə lazım gələ bilər. Orbanın fikrincə, Ukraynanın Qərb tərəfindən dəstəklənməsi yaxşı niyyət olsa da, müharibənin daha da uzanması və daha çox insan itkisinə yol açması qlobal stabilliyə zərbədir. Macarıstan lideri bir neçə dəfə bu cür güzəştlərin müharibənin dayandırılmasına və sülhə gətirib çıxara biləcəyinə işarə etmişdi.

Orbanın da çağırışları Ukrayna rəhbərliyi tərəfindən qəbul edilməmişdi və Zelenski Ukraynanın ərazi bütövlüyünün bərpasının əsas şərt olduğunu vurğulamışdı.

### 6 ölkə Ukraynanı görmək istəmir...

İndiki halda isə situasiyanı soyuq başla dəyərləndirmənin vaxtı yetişib. Düzdür, "müharibə davam etsin" sxeminə riayət edən NATO-nun yeni rəhbəri Kiyevi nəyin bahasına olursa olsun alyansa qatmağı planlaşdırsa da, bu mümkün olmur - bu halda NATO Ukraynada müharibənin başa çatdırılması üçün danışıqlar ssenarilərini nəzərdən keçirir. Hətta atəşkəs üçün təkliflərdən biri Avropa qüvvələrinin nəzarəti altında demilitarizasiya zonasının yaradılmasını nəzərdə tutur. Ukraynanın NATO-ya üzvlük məsələsi isə hələ də yekdilliklə dəstəklənmir. Hətta son olaraq Brüsseldə baş tutan NATO-nun xarici işlər nazirlərinin görüşündə iştirakçı ölkələr Ukraynanı alyansa dəvət etmək barədə razılığa gələ bilməyiblər. Ukraynanın üzvlüyünə qarşı olan ölkələr arasında Lüksemburq, Almaniya, Türkiyə, Slovakiya, Macarıstan və ABŞ yer alır. Onlar Rusiya ilə davam edən müharibənin bu imkanı istisna etdiyini bildiriblər....

**P.İSMAYILOV**

---

# ABŞ-ın "yumşaq güc" toru...

## OCCPR Avropa nəşrləri tərəfindən ifşa edildi

Yer kürəsini qlobal müharibənin bir addımlığına gətirib çıxaranlar "mütləq güc"ə çevrilmək üçün bütün vasitələrə əl atırlar. Ötən əsrin sonlarından etibarən bu məqsədlə müxtəlif yollardan istifadə edən dövlətlər bəzən sərt, bəzən isə yumşaq vasitələrlə öz niyyətlərinə çatmağı hədəfləyiblər - xüsusilə, ABŞ illərlə Avrasiyanın bütün regionlarına təsir imkanlarını araşdırıb. ABŞ-ın xarici siyasət kursunun ən mühüm detallarından biri sayılan "nəzarət və təsiretmə" özünü fərqli ştrixlərlə büruzə verib. "Təsir imkanları" axtarışları hər zaman fərqli istiqamətlərə, fərqli vasitələrə əsaslanıb:

- Bəzən xəyanətkar siyasi partiyalarla "işbirliyi" yaradan;
- Bəzən vətəndaş cəmiyyəti sıralarında "müttəfiq" axtaran;
- Bəzən nəzarəti altındakı KİV üzərindən çirkin planlarını həyata keçirmək istəyən ABŞ yeni dövrdə daha fərqli bir istiqamət seçib - yumşaq gücün ən real təsiretmə mexanizmi fərqli təşkilatlar və ya fondlar, eləcə də fərqli "institutların" nəzarətindəki "ofislər" vasitəsilə mənafenin təminidir.

### ABŞ 47 milyon, Qərb dövlətləri 15 milyon ...

Bu fakt dünyanın bir sıra media və ya vətəndaş cəmiyyəti institutları tərəfindən aktiv şəkildə araşdırılır və nəticələr demək olar ki, eynidir - bəlli olur ki, "yumşaq güc" vasitəsilə öz niyyətinə çatmaq imkanları hər zaman ABŞ üçün aktuallıq daşıyır və bu yolda manevr imkanları çoxdur. Vurğulandığı kimi, ABŞ özünün "istifadəsində" olan təşkilatlar vasitəsilə bu işi planlayır və icra edir.

Yeri gəlmişkən, Fransanın "Mediapart", İtaliyanın "Il Fatto Quotidiano", Yunanıstanın "Drop Site" və "Reporters United" nəşrlərinin birgə araşdırmasında Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi - OCCPR-nin mənsubluğu, maliyyə mənbələri, əsl məqsəd və məramı ifşa edilib. Bu qurumun ABŞ tərəfindən rəqiblərinə qarşı silah kimi istifadə edilməsi fakt və arqumentlərlə ortaya qoyulub. Xatırladaq ki, sözdə Şərqi Avropa, Qafqaz, Mərkəzi Asiya və Mərkəzi Amerikada fəaliyyət göstərən araşdırma mərkəzləri, media və jurnalistlərin konsorsiumu "adlanan" OCCPR Vaşinqtonun təsir rıçaqlarından biri və ən önəmlilərindən sayılır. OCCPR-nin əsas məqsədi ABŞ kəşfiyyatı tərəfindən ötürülən məlumatların (daha çox yalanların) "araşdırmaçı jurnalist" məhsulu kimi təqdimatı və bununla Vaşinqtonun xarici siyasətində təsir rıçaqı rolunu oynamasıdır. Bir məqama xüsusi diqqət yetirmək lazımdır ki, "konsorsiumun" maliyyələşdirilməsinin əsas hissəsi ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) və Açıq Cəmiyyət Fondu (OSF) tərəfindən aparılır. ABŞ-ın xarici siyasətinin formal komponenti olan USAID isə bəlli olduğu kimi, ABŞ prezidentinin, dövlət katibinin və Milli Təhlükəsizlik Şurasının rəhbərliyi altında fəaliyyət göstərir. O ki qaldı, Corc Sorosun Açıq Cəmiyyət Fonduna, bu haqda geniş danışmağa ehtiyac qalmır - bu fond dünyada baş verən destabilliklərin ssenari müəllifi kimi tanınır...

Araşdırmaya görə, yarandığı ilk illərdə ABŞ federal hökuməti OCCPR-nin xərclədiyi vəsaitin 52 faizini təmin edib. 2014-2023-cü illərdə isə bu göstərici 46,4 faizə "düşüb". O cümlədən OCCPR-nin yaradıldığı dövrdən indiyədək ABŞ hökuməti müstəqil qeyri-kommersiya redaksiyasına azı 47 milyon dollar ayırıb və əlavə 12 milyon dollar ayırmağı öhdəsinə götürüb. Maliyyələşmənin ABŞ "ayağının" zəifləməsi isə maliyyə resursları arasına Qərb dövlətlərinin də "qatılması" olub. Digər Qərb hökumətləri son 10 ildə azı 15 milyon dollar məbləğində vəsait ödəyiblər. OCCPR-nin Direktorlar Şurası bu araşdırmanı birgə dərc edən nəşrlər üçün verdiyi açıqlamada ABŞ-ın onların əsas sponsoru olduğunu təsdiqləyib.

### USAID-in "əli" ilə...

Qeyd edək ki, araşdırmada OCCPR-ın yalnız təmsil etdiyi məqsədlərə "istiqamətlənən" xəbərləri irəli sürdüyü, lakin daha geniş və dərin araşdırmaların qarşısını aldığı bildirilir. Əlində "siyasi dəyənəyə" çevirdiyi "konsorsiumu" ABŞ hökuməti öz maraqları üçün istifadə edir - OCCRP-nin əsas məqsədinin korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizə olduğu iddia edilsə də, bu təşkilatın müəyyən vaxtlarda ayrı-ayrı müstəqil dövlətlərə qarşı açıq və gizli şəkildə təbliğat apardığı çox sayda sual doğurur.

Aparılan araşdırmalar isə onu göstərir ik, təbliğatın arxasında ABŞ-ın həmin dövlətələrə və ya coğrafiyaya yönəlik regional maraqları dayanır. Məsələn, necə olur ki, bu qurum Amerika milyarderlərinin ofşor zonasındakı fəaliyyətləri ilə bağlı ciddi araşdırmalar aparmır - bu kimi amillər təşkilatın fəaliyyətindəki qeyri-şəffaflıqları ortaya qoyur. Bu, həm də ABŞ-ın OCCRP vasitəsilə öz siyasi və iqtisadi maraqlarını müdafiə etməyə çalışdığını göstərir. Təşkilatın USAID ilə əlaqələri isə məhz bu maraqların təmininə istiqamətlənib. Hazırda OCCRP-nin əməliyyatlarını USAID əməkdaşı Şennon Maquayrin kurasiyası edir və o bildirir ki. ABŞ hökumətinin OCCRP-yə verdiyi dəstəkdən fəxr edir: "Biz fəxr edirik ki, ilk ictimai donor olduq. USAID, yəni ABŞ hökuməti OCCRP-yə dəstək verən ilk ictimai donor kimi tarixə yazıldı". O, həmçinin qeyd edib ki, hökumət dəstəyini nə qədər çox təbliğ etdiklərini diqqətlə izləyir. Maquayr və digər USAID rəsmiləri OCCRP-nin illik konfranslarında iştirak edirlər.




### OCCRP və ABŞ-ın Azərbaycan və Cənubi Qafqazdakı strateji maraqları

OCCRP-nin Azərbaycanla bağlı fəaliyyətləri, daha çox ABŞ-ın bu ölkədəki maraqlarına uyğun şəkildə formalaşır. Bu təşkilat, xüsusən də Azərbaycanın enerji resursları və strateji mövqeyi ilə bağlı olan məsələlərdə, ABŞ-ın dövlət siyasətini dəstəkləyən məlumatlar təqdim edir. Həmçinin, təşkilatın fəaliyyəti, Azərbaycanın daxili siyasətinə və iqtisadi inkişafına dair mənfi fikirlərin yayılmasına yönəlib. OCCRP-nin Azərbaycana qarşı açıq və gizli şəkildə həyata keçirdiyi təzyiqlər, əsasən erməni maraqlarını müdafiə etmək məqsədi güdür. Təşkilatın fəaliyyəti, erməni lobbi qruplarının Azərbaycan əleyhinə təbliğatını dəstəkləyir və bu, ABŞ hökumətinin rəsmi mövqeyinə də uyğun gəlir. Xüsusən, Samanta Pauerin ABŞ-ın ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) rəhbəri kimi "tərəfdaş qurum" olaraq OCCRP ilə əməkdaşlığı, təşkilatın Azərbaycana qarşı həyata keçirdiyi fəaliyyətlərin ABŞ-ın rəsmi siyasəti ilə sıx əlaqəli olduğunu göstərir. Təsadüfi deyildi ki, cinayətkar separatçıların məsuliyyətdən yayındırılması ilə bağlı aparılan kampaniyada da OCCRP "ön sıralarda" təmsil olunur.

Təşkilatın media əlaqələri də ABŞ-ın nüfuzunu gücləndirən bir vasitədir. OCCRP, Amerika mətbuat orqanları, o cümlədən Vaşinqton Post, Qardian, və CNN kimi dünya miqyasında tanınan media qurumları ilə əməkdaşlıq edir. Bu qurumlar, OCCRP tərəfindən təqdim edilən məlumatları yaymaqda, həmçinin ABŞ-ın siyasi gündəmini qlobal səviyyədə təşviq etməkdə mühüm rol oynayır.

Məlumatlara əsasən təşkilatın 60-dan çox ölkədə 200-dən çox işçisi var və o, dünyadakı yerli jurnalistlər üçün mərkəz rolunu oynayır. Əməkdaşlıq layihələri üçün OCCRP yalnız onun logistika, redaktə və araşdırma dəstəyini təklif etmir, həm də yerli jurnalistlər üçün, o cümlədən maaşlar üçün xərc ödəyir - bunu OCCRP-nin həmtəsisçisi Paul Radu bildirib. "Biz hekayənin xərclərini qarşılayırıq. Məsələn, bir jurnalist harasa səyahət etməlidir, jurnalist informasiya bazasından məlumat əldə etməlidir, bu, müəyyən qədər pul edir. Biz bu xərcləri qarşılayırıq. Və sonra biz həmçinin jurnalistin maaşını da qarşılayırıq"... Beləliklə, məsələnin mahiyyəti ortaya çıxır - əslində bu qurum "maaş" və ya "yardım" adı altında öz maraqlarının diqtə etdiyi jurnalistləri maliyyələşdirir. Qısaca nəzər yetirsək, təşkilatın yerlərdəki nümayəndələrinin hər birinin dəfələrlə əsassız fikirlər yaydığını, qondarma, ABŞ-ın maraqlarına uyğun "araşdırmalar" təqdim etdiyini görərik.

**Sözdə Şərqi Avropa, Qafqaz, Mərkəzi Asiya və Mərkəzi Amerikada fəaliyyət göstərən araşdırma mərkəzləri, media və jurnalistlərin konsorsiumu "adlanan" OCCPR Vaşinqtonun təsir rıçaqlarından biri və ən önəmlilərindən sayılır. OCCPR-nin əsas məqsədi ABŞ kəşfiyyatı tərəfindən ötürülən məlumatların (daha çox yalanların) "araşdırmaçı jurnalist" məhsulu kimi təqdimatı və bununla Vaşinqtonun xarici siyasətində təsir rıçaqı rolunu oynamasıdır**

### Xədicə İsmayıl sifariş yerinə yetirir...

OCCRP-nin Azərbaycanla bağlı "araşdırmalarında" Xədicə İsmayıldan vasitə kimi istifadə edilib. Yeri gəlmişkən, illərdir ki, X.İsmayılın xarici fondlardan və təşkilatlardan yüz minlərlə dollar "qrant", "mükafat" alması sirr deyil - hətta 2014-cü ildə USAID-in elan etdiyi qrant layihəsi üzrə ayrılan vəsaitin mühüm hissəsi məhz X.İsmayıla "transfer" olmuşdu.

2015-ci ildə "Azadlıq" radiosunun keçmiş prezidenti Ceffri Qodmin "The Boston Globe" qəzetində radionun müxtəlif ölkələrdəki bölmələrində çalışan jurnalistlərlə bağlı sensasiya xarakterli bir məqalə ilə çıxış etmişdi. Qodmin vaxtilə radionun Bakı bürosuna rəhbərlik etmiş Xədicə İsmayılın da sıralarına daxil olduğu bu media nümayəndələrinin əslində jurnalist yox, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin agentləri olduqlarını açıqlamışdı. O, jurnalistlərin MKİ tərəfindən "verbovka" olunduğunu, onlardan milli dövlətlərə qarşı istifadə olunduğunu açıq mətnlə dilə gətirmişdi. Beləliklə, X.İsmayılın əslində fərqli fond və təşkilatların sifarişini yerinə yetirməsi, hətta müəyyən materiallarda yalnız imzasının istifadəsinə razılıq verməsi və bunun müqabilində pul alması kimi aktlar məhz qərbli "dostları" tərəfindən ifşa edilir.

**S.İSMAYILZADƏ**

# “Rəqəmsal qızıl” valyuta bazarını gərginləşdirir

## “Bitcoin”in yaxın 20 ildə 13 milyon dollara yüksələcəyi ehtimal edilir

Dünyada ən bahalı kriptovalyuta (rəqəmsal pul) olan “Bitcoin”in dəyəri yenidən artaraq rekordu təzələyib. Ötən gün virtual pul bazarında “Bitcoin”in qiyməti 103,844 dollara çatıb. Ümumiyyətlə, son bir ildə “Bitcoin”in qiyməti 3,5 dəfə bahalaşıb. “Bitcoin”in bahalaşması onun bazar dəyərini və əməliyyatlar üzrə dövriyyəsini də yüksəltməkdədir. Hazırda dövriyyədə olan bu virtual pulların ümumi dəyəri 2 trilyon dollara yaxındır.

“Bitcoin”in dəyəri dolların dəyərindəki dəyişiklikdən də asılı olur. Əgər dolların qlobal dəyəri azalarsa, “Bitcoin” bir qədər də bahalaşır. Bu baxımdan ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FED) yürütdüyü siyasət da bu kripovalyutanın dəyərinə təsir edir. FED sədri Pauelinin “New York Times DealBook” sammitində çıxışı zamanı “Bitcoin”in spekulyativ bir aktiv olsa da qızıla bənzətməsi rəqəmsal pul bazarında silkələnmələri daha da gərginləşdirib. FED sədrinin çıxışı və yeni tənzimləyici dəyişikliklər “Bitcoin” üçün əlverişli bir mühit yaradıb, “rəqəmsal qızıl” kimi statusunu möhkəmləndirib və onu maliyyə dünyasında əhəmiyyətli bir aktivə çevirib.

### Trampın qalibiyyəti kriptovalyuta bazarını canlandırıb

Eksperlər “Bitcoin”in qiymət artımının siyasi amillərlə bağlılığını istisna etmir. Prezident seçilmiş Donald Trampın kriptovalyuta tərəfdarı kimi tanınan bir şəxsi, Qiymətli Kağızlar və Birjalar Komissiyasının (SEC) yeni sədri təyin etməsidir. Bu təyinat, rəqəmsal aktivlər üçün daha müsbət tənzimləmə siyasətlərinin həyata keçirilməsinə dair ümidləri artırıb və investor etimadını gücləndirib. Qeyd edək ki, ABŞ-da keçirilən prezident seçkilərində Donald Trampın qalib gəlməsindən cəmi bir gün sonra rəqəmsal valyuta bazarında ilk siqnallar özünü vermişdi. Seçkilərdən sonrakı günlərdə ABŞ-la yanaşı, qlobal iqtisadiyyatın müxtəlif sektorlarında, ələxüsus da birjalarda virtual volatilliklər baş verməkdədir. Amerikanın aparıcı fond birjalarında istiqraz və bondların, səhmlərin, digər qiymətli kağızların bazar indeksləri son bir ayda 5 faiz artım nümayiş etdirib. Maliyyə bazarında kriptovalyutaların qiymət sıçrayışları daha həyəcanverici olub, rəqəmsal valyutaların indeksləri 4-5 faiz artmaqla maliyyə seqmentlərində son ayların ən yüksək artımını qeydə aldırıb. Xüsusilə də, bitcoinlərin tranzaksiyaları sürətlə dövr edib, bu elektron pulun qiyməti birja tarixində ilk dəfə olaraq noyabrda 75 min dollara, dekabrda isə 103 min dollara yüksəlib.

Baş verən proseslər kriptovalyutaların ənənəvi maliyyə sistemində artan rolunu və qəbulunu göstərir. “Bitcoin”in “rəqəmsal qızıl” kimi tanınması, onun dəyər saxlama vasitəsi kimi potensialını artırır və investorların diqqətini cəlb edir. Analitiklər “Bitcoin”in illik artım faizinin artıq 135 faizə çatdığını və bu artımın davam edəcəyini proqnozlaşdırırlar. Bəzi ehtimallara görə, bu kriptovalyuta ilin sonuna qədər 125-130 dollar arasında satıla bilər. Uzunmüddətli perspektivdə isə 2045-ci ilə qədər 13 milyon dollara yüksələ bilər.

Gələcəkdə “Bitcoin”in maliyyə sistemindəki rolu və dəyəri, həm texnoloji inkişaf, həm də tənzimləyici mühitin dəyişməsi ilə formalaşacaq. Bu səbəbdən, investorlar və analitiklər, kriptovalyuta bazarını diqqətlə izləməyə davam edirlər.

**Baş verən proseslər kriptovalyutaların ənənəvi maliyyə sistemində artan rolunu və qəbulunu göstərir. “Bitcoin”in “rəqəmsal qızıl” kimi tanınması, onun dəyər saxlama vasitəsi kimi potensialını artırır və investorların diqqətini cəlb edir. Analitiklər “Bitcoin”in illik artım faizinin artıq 135 faizə çatdığını və bu artımın davam edəcəyini proqnozlaşdırırlar. Bəzi ehtimallara görə, bu kriptovalyuta ilin sonuna qədər 125-130 dollar arasında satıla bilər. Uzunmüddətli perspektivdə isə 2045-ci ilə qədər 13 milyon dollara yüksələ bilər**



**Bəzi ekspertlər düşünür ki, “Bitkon”ların bahalaşması manat üçün təhlükə yarada bilər. Bu arqument də inandırıcı deyil, “rəqəmsal qızıl”ın ölkəmizin valyuta bazarına müdaxiləsi qeyri-mümkündür. İlk növbədə, ona görə ki, Azərbaycan bu virtual valyutanı emissiya etməyib və hesablaşmalarda, bazar əməliyyatlarında kriptovalyutadan istifadə olunmur. Ölkəmiz xarici valyuta seqmentlərinə, ələlxüsus da kriptobazarlara inteqrasiya olunmayıb, yerli səhmdarların və investorların, qiymətli kağızlar bazarının emitentlərinin virtual alətlərlə əməliyyatları həyata keçirilmir**

### Azərbaycanda kriptovalyutalar riskli hesab edilir

Azərbaycanda kriptovalyutalara monetar baxış konservativdir, blokçeyn texnologiyalarından istifadəyə müsbət yanaşılsa da, kriptovalyuta sektoru yüksək riskli investisiya aktivləri olduğundan onun maliyyə sektorunda tətbiqi təhlükəli sayılır. Bu sahədə hüquqi infrastrukturun olmaması belə sərt xarici şoklar yarada, daxili valyuta bazarında sabitlik pozula bilər. Eyni zamanda, hazırda ölkəmizdə kriptovalyutaların onlayn alışı və satışı halları mövcud olmasına baxmayaraq, bu risk alətlərinin tənzimlənməsi üçün qəti addımların atılması da aktualdır. Mərkəzi Bank bu sahədə tənzimlənmənin aparılması üçün müxtəlif ssenarilər işləyir və öz strategiyası çərçivəsində bu istiqamətdə tədbirlər görmək niyyətindədir.

Bundan başqa, kriptovalyutanın kəskin qiymət sıçrayışları valyuta seqmentində də narahatlıqlar yaradır. Avropa və Asiya ölkələrinin bəzilərində milli valyutalar dəyər itirməkdə davam edir. Ona görə də, “Bitkon”lara inteqrasiya indiki halada ölkəmizin monetar sektoru üçün də məqsədəuyğun deyil.

Yeri gəlmişkən, bəzi ekspertlər düşünür ki, “Bitkon”ların bahalaşması manat üçün təhlükə yarada bilər. Bu arqument də inandırıcı deyil, “rəqəmsal qızıl”ın ölkəmizin valyuta bazarına müdaxiləsi qeyri-mümkündür. İlk növbədə, ona görə ki, Azərbaycan bu virtual valyutanı emissiya etməyib və hesablaşmalarda, bazar əməliyyatlarında kriptovalyutadan istifadə olunmur. Ölkəmiz xarici valyuta seqmentlərinə, ələxüsus da kriptobazarlara inteqrasiya olunmayıb, yerli səhmdarların və investorların, qiymətli kağızlar bazarının emitentlərinin virtual alətlərlə əməliyyatları həyata keçirilmir.

Həmçinin, qlobal valyuta bazarındakı dəyişikliklərə uyğun olaraq Mərkəzi Bank məzənnə siyasətini müəyyənləşdirir.

Ona görə, bitkoin və ya digər blokçeynlərin manatın məzənnəsi ilə əlaqəsi olmadığından Azərbaycan manatı üçün heç bir təhlükə yoxdur.

*ELBRUS*

# Ən qısa “ömürlü” baş nazir...

## Barnyenin istefası Makronu “istirahətə” göndərəcək

## Ölkə yeni ilə büdcə qanununu qəbul etmədən girəcək

Dekabrın 4-də Fransa Milli Assambleyası Yeni Xalq Cəbhəsi (NFP) qrupunun təqdim etdiyi senzura təklifini qəbul edib. Mətnin lehinə 331 deputat, yəni onun qəbulu üçün tələb olunan 288 səsin mütləq əksəriyyətindən 43 deputat çox səs verib. Bu səsvermə baş nazir Mişel Barnyenin istefasını təmin edib. Xatırladaq ki, cəmisi 4 ay (sentyabrın 5-dən dekabrın 4-nə kimi) baş nazir olan sağ mərkəzçi “Respublikaçılar”ın nümayəndəsi Barnye müasir Fransa tarixində ən qısa “ömürlü” və 1962-ci ildən bəri parlament tərəfindən devrilmiş ilk baş nazir oldu. Siyasi ekspertlərin fikrincə, bu istefa prezident Emmanuel Macronun da kreslosunu “laxladacaq” və ölkəni siyasi - iqtisadi qeyri-müəyyənliyə sürükləyəcək.

### Barnye “getdi”...

Fransanın parlamentində təmsil olunan siyasi tərəflər bu istefanı sevinclə qarşılayıblar. İfrat solçu fraksiyanın başçısı Matilda Pano bildirib ki, bu gün tarixi bir gündür: “Bu gün biz demokratiyanı müdafiə etdik. Nəhayət Barnye hökuməti, zorakı büdcəsi kimi, çökdü”. Pano prezident Emmanuel Makronu da istefa verməyə çağırıb.

Parlament seçkilərinin qalibi olmuş ifrat sağçı Marin Le Pen də hələ seçkidən öncə Milli Birlik partiyasının mövqeyini açıqlamışdı. “Belə bir büdcəyə, belə bir hökumətə, belə bir süquta senzura tətbiq etməmək ən pis siyasət olardı”, - deyən Le Pen Mişel Barnyenin ardından Emmanuel Makronun istefasına da ümid etdiyini və bunun reallaşmasına çox az vaxtın qaldığını deyib.

### Makronun “B” planı, yoxsa...

Bir sıra nəşrlər isə Barnyenin istefasını Makronun “B” planı kimi dəyərləndirirlər. Mişel Barnyenin “sonunu reallaşdıran” büdcənin azaldılması haqqında qanunun qəbul edilməsi cəhdinin məhz Makronun “həmləsi” olduğu bildirilir. Maraqlıdır ki, bu təklifə qarşı həm solçular, həm də sağçı qruplar etiraz təklifləri hazırlamışdı. Nəticədə solçuların layihəsi birinci səsverməyə çıxarıldı və tələb olunan 288 səsdən də artıq olan 331 səs çoxluğu “toplandı” - bu isə onu göstərir ki, Makronla vidalaşmaq istəyi həm solçu, həm də sağçı qrupları bir-birinə “yaxınlaşdırır”. Müasir Fransa tarixində ilk dəfə idi ki, ifrat solçu və ifrat sağçı qruplar eyni təklifə birgə cavab verdilər.





Düzdür, Barnyenin sonunu gətirən faktorlar arasında xüsusilə baş nazirin sağçılara “güzəştə getməməsi” birinci yerdə olsa da, istefadan sonra solçular özlərini qalib kimi hiss edirlər - onlar baş nazirin məhz solçu olmasını tələb edirlər. Əks halda Barnyenin aqibəti Makronu da gözləyir - solçuların bu hədəsi isə boşuna deyil. Parlament çoxluğunun rəhbəri Marin Le Pen radikal müxalifətə çevrilməyəcəyini bildirib - o, gələcək baş nazirin işləməsinə icazə verməyə” hazır olduğunu deyib. Tələb isə hamı üçün məqbul büdcə əldə edilməsidir.

Hadisələrin isə hələlik yumşalmasına ehtiyac duyulur - bu baxımdan, yeni baş nazirin təyinatı gecikə bilər. Baş nazir istefa versə də, əvvəlki Qabriel Attal hökumətində olduğu kimi, indiki hökumətdə vəzifədə qalacaq. Yeni baş nazir isə üç tərəfi - həm sağçı, həm solçu həm də prezidenti qane edəcək kompromis fiqur olmalıdır.

### Prezident istefaya dəvət edilir...

Makron onu nələrin gözlədiyini anlayır - təsadüfi deyil ki, parlament çıxışları zamanı yaranan xaosun əsl səbəbkarı kimi məhz o işarə edilib. Müxalifət bütövlükdə bu qərarın 2027-ci ilin yazına qədər səlahiyyət müddəti olan Makronun özünün verməli olduğunu düşünür. Xarici mətbuat isə Fransada yaranan bu siyasi gərginliyin qarşıdakı zamanda bütün avrozonada təlatümlərə səbəb ola biləcəyindən ehtiyat edir. Bu mənada siyasətçilər Makronu həm ölkəsini, həm də avrozona düşərgəsini özünün maraqlarına qurban verməməyə çağırıblar. Onların fikrincə, Emmanuel Makron son yeddi ildə millətin təməllərinə hücum edib. Ölkəni düşdüyü uçurumdan isə yalnız onun istefası çıxara bilər”. Siyasi ekspertlər isə Makronun vəziyyəti dəyişdirə bilməyəcəyinə və Aİ-nin ikinci ən böyük iqtisadiyyatını idarəolunmaz trayektoriyadan xilas etməyə gücünün çatmayacağına əmindirlər. Maraqlıdır ki, qanun prezidentə yeni parlament formalaşdırmağa da imkan vermir - 2025-ci ilin yayına qədər yeni parlament seçkiləri təyin edilə bilməz. Bu isə onu göstərir ki, Fransa tarixində mühüm bir mərhələ ilə üzüzədir - ölkə büdcə qanununu qəbul etmədən yeni ilə girəcək...

**Le Pen Mişel Barnyenin ardından Emmanuel Makronun istefasına da ümid etdiyini və bunun reallaşmasına çox az vaxtın qaldığını deyib**

### Makron özünü “sındırmır”...

Yaranan iqtisadi təhlükə həm də ölkədə investorları təşvişə salır. Fransa Yunanıstanın taleyini yaşaya və iqtisadi böhranın ən dibinə yuvarlana bilər. Daxili auditoriya Makronu iqtisadiyyatı bilməməklə yanaşı siyasətdən də başının çıxmadığını deyir. Situasiyanı düz qiymətləndirməyən Fransa prezidentinin son addımları xalqı qəzəbləndirib - sosial şəbəkələrdə yaranan vəziyyətin ABŞ ilə qarşıdurmadan qaynaqlandığı bildirilir. Donald Trampın qayıdışından tutmuş Ukraynadakı münaqişəyə münasibətə və Çinlə potensial ticarət müharibəsinə qədər bütün addımları Makronun “çiy siyasətçi” olduğunu təsdiqləyir. Fransa cəmiyyəti Makronu nəinki Avropa İttifaqına, heç öz ölkəsinə liderlik edə bilməməkdə günahlandırır.

Maraqlıdır ki, Makron yaranan vəziyyətdə heç nə baş vermirmiş kimi davranır - bütün gərginliklərə baxmayaraq o, Səudiyyə Ərəbistanına planlaşdırdığı səfərini ləğv etmədi. Fransız mətbuatı isə Makronun bu addımını “başını itirmək” kimi qiymətləndirir - onlar etiraf edirlər ki, Makron ölkəni idarə etmək rıçaqlarını itirib. Sadəcə olaraq, Makron göstərməyə çalışır ki, guya rəsmi Paris daxili böhran fonunda dünya səhnəsində mühüm rolunu qoruyub saxlayır. Bu isə olduqca gülünc bir “tamaşadır”...

**Makron yaranan vəziyyətdə heç nə baş vermirmiş kimi davranır - bütün gərginliklərə baxmayaraq o, Səudiyyə Ərəbistanına planlaşdırdığı səfərini ləğv etmədi. Fransız mətbuatı isə Makronun bu addımını “başını itirmək” kimi qiymətləndirir - onlar etiraf edirlər ki, Makron ölkəni idarə etmək rıçaqlarını itirib**

*P.İSMAYILOV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Rəqəmsal siyasət...

## Rabitə və texnologiya işçilərinin bayramıdır



Azərbaycan rabitəsinin zəngin tarixi kökləri var. Hələ 1303-cü ildə Qazan xan Hülakülər dövlətini iqtisadi və siyasi böhrandan qurtarmaq üçün poçt sahəsində islahatlar həyata keçirib. 1501-ci ildə Şah İsmayıl Xətai poçt rabitəsinin dövlət səviyyəsində təşkilinin təməlini qoyub. 1881-ci il dekabrın 6-da isə "Nobel qardaşları cəmiyyəti" tərəfindən Azərbaycanda rəsmi olaraq ilk telefon xətti istismara verilib. Beləliklə, 19-cu əsrin sonları, 20-ci əsrin əvvəllərində Bakıda neft sənayesi ilə bərabər telefon rabitəsi də inkişaf edib, o dövr üçün geniş telefon şəbəkəsi yaradılıb.

Sovet hakimiyyəti illərində Azərbaycan rabitəsi o dövrün tələblərinə uyğun qurulub. 1959-cu ildə Azərbaycan SSR Nazirlər Soveti respublikanın ali məktəblərində yüksək ixtisaslı rabitəçi mütəxəssislər hazırlanması barədə qərar qəbul edib. 1965-ci ildə Azərbaycan Politexnik İnstitutunda "Telefon və teleqraf rabitəsi" ixtisası üzrə mühəndislərin ilk buraxılışı olub.

## Ölkəmizdə İKT infrastrukturunun yaranması

Ölkəmizdə rabitənin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin respublikaya rəhbərliyinin birinci mərhələsini əhatə edən həmin dövrdə rabitənin inkişafı üzrə bir sıra mühüm qərarlar qəbul edilib. Həmin illərdə poçt, teleqraf və teleradio proqramlarının yayımı inkişaf etdirilib. Bakıda Dəmir yolu yanı poçtamt binasının, Rabitə evi, onlarla rayon mərkəzində rabitə qovşaqlarının və Respublika üzrə yüzlərlə poçt şöbəsi binasının inşası məhz həmin dövrə təsadüf edir.

Azərbaycan müstəqillik qazanandan sonra da Heydər Əliyev rabitə sahəsinə xüsusi diqqət göstərib. Onun diqqəti nəticəsində ölkə iqtisadiyyatında ilk xarici investisiyalar məhz telekommunikasiya sahəsinə qoyulub.

Azərbaycanda rabitənin inkişafı istiqamətində atılmış ən mühüm addımlardan biri Heydər Əliyevin 2003-cü il fevralın 17-də "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə 2003-2012-ci illəri əhatə edən Milli Strategiyanın" təsdiq edilməsi haqqında sərəncamı olub. Ötən müddətdə respublikada informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində reallaşdırılan siyasət məhz bu strategiyanın üzərində qurulub.

## Rabitə işçilərinin sayı 32 min nəfəri ötüb

Sürətlə inkişaf edən yeni texnologiyaların bir-birini əvəzlədiyi müasir dövrdə isə bu tərəqqi Prezident İlham Əliyevin rəhbərliyi ilə daha geniş vüsət alıb. Rabitə sahəsi üçün böyük önəm kəsb edən 6 dekabr tarixi Prezidentin 2006-cı il 2 dekabr tarixli müvafiq sərəncamına uyğun olaraq, rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Dekabrın 6-nın bu sahədə çalışanların peşə bayramı günü kimi təsis edilməsi göstərilən dövlət qayğısının daha bir təzahürü idi. Görülən işlərin nəticəsidir ki, Azərbaycan İKT-nin inkişaf göstəricilərinə görə inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qiymətləndirilir.

Ölkə başçısının rəqəmsal iqtisadiyyatın qurulmasına yönələn siyasəti Azərbaycanı bu sahədə rolunun genişləndiyi, modern telekommunikasiya infrastrukturunun qurulduğu bir ölkəyə çevirib. Bunun nəticəsidir ki, Azərbaycanda İnformasiya və rabitə sektorunda çalışan işçilərin sayı 32 min nəfəri ötüb. Azərbaycanda bu sahənin inkişafı ilə bağlı milli strategiyalar, strateji yol xəritələri, dövlət proqramları, qanunvericilik aktları qəbul olunub. Ölkəmizdə vətəndaşlar İKT vasitələri ilə, eləcə də yüksəksürətli internet, kompüter, mobil telefonlar və digər rabitə avadanlıqlarla təmin edilir.

Son 20 ildə informasiya və rabitə sahəsində 10 dəfədən çox artıma nail olunub, bütün sahələrdə müasir texnologiyaların tətbiqi sürətləndirilib.

**Rabitə sahəsi üçün böyük önəm kəsb edən 6 dekabr tarixi Prezidentin 2006-cı il 2 dekabr tarixli müvafiq sərəncamına uyğun olaraq, rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Dekabrın 6-nın bu sahədə çalışanların peşə bayramı günü kimi təsis edilməsi göstərilən dövlət qayğısının daha bir təzahürü idi. Görülən işlərin nəticəsidir ki, Azərbaycan İKT-nin inkişaf göstəricilərinə görə inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qiymətləndirilir**

## Nağdsız ödənişlərin sayı artıb

Ölkəmizdə aparılan islahatlar nəticəsində əhalinin rəqəmsal bacarıqları da artırılıb. Bu istiqamətdə ölkənin bütün regionlarında təlimlər, təqaüd proqramları təşkil edilib. Həmçinin Azərbaycanda nağdsız ödənişlərin genişləndirilməsi üçün elektron hökumət ödəniş sistemi - "E-gov Pay" yaradılıb və istifadəyə verilib. Belə ki, Azərbaycanda nağdsız ödənişlərin məbləği artıb. Ölkədə internetdən istifadə və bilavasitə elektron ticarətin həcmi dəfələrlə yüksəlib. Həyata keçirilən nağdsız ödənişlərin 4107 milyon manatdan çoxu elektron ticarətin payına düşür.

Bundan başqa, 40-dan çox dövlət qurumunun 350-dən artıq xidməti "Elektron hökumət" portalında vətəndaşlara təqdim olunub. Elektron xidmətlərə artan tələbat fonunda e-imzanın istifadəsi təkmilləşdirilərək "elektron imza" tokenləri yaradılıb. Azərbaycanda rəqəmsal transformasiyanı sürətləndirmək və onlayn xidmətlərdən istifadəni təşviq etmək məqsədilə SİMA adı altında "bulud" əsaslı yeni nəsil rəqəmsal imza istifadəyə verilib.

## İnternet provayderlərinin sayı 150-ni ötüb

Ölkə ərazisində fəaliyyət göstərən internet provayderlərinin sayı 150-ni ötüb. Əhalinin 88 faizi internet, eyni zamanda, genişzolaqlı internet istifadəçisidir. Ölkə əhalisinin mobil şəbəkə ilə əhatə faizi 100 faiz, 3G şəbəkəsi üzrə əhatə 99.8 faiz, 4G şəbəkəsi üzrə əhatə 94 faiz təşkil edir. Hər 100 nəfərə düşən aktiv mobil genişzolaqlı internet abunəçilərinin sayı 80 faizdən çoxdur. Yüksəksürətli internet şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə "Onlayn Azərbaycan" layihəsinə başlanılıb. Artıq ev təsərrüfatlarının 50 faizdən çoxunun yüksəksürətli internet xidmətlərinə çıxışı təmin edilib.

İşğaldan azad olunmuş ərazilərdə mobil infrastruktur, fiber-optik kabel şəbəkəsi, müasir standartlara cavab verən telekommunikasiya qovşaqları yaradılıb, televiziya və radio proqramlarının yerüstü yayımı həyata keçirilir. Bu istiqamətdə işlər davam etdirilir.

Bu gün hər bir rabitəçi ölkəmizdə yüksək texnologiyalar sahəsinin inkişafı üçün çalışır. Ölkə başçısının rəhbərliyi ilə sahə üzrə bu amal uğrunda fəaliyyət göstərən hər kəsə uğurlar arzu edirik. Rabitə və texnologiyalar sahəsi işçilərini peşə bayramları münasibətilə təbrik edirik!

***Yeganə BAYRAMOVA***

# Ölüm riskini azaldır

## İnsan 5 il daha çox yaşaya bilər...

Əgər bütün amerikalılar idmanla əzmlə məşğul olan həmvətənləri kimi aktiv olsaydılar, ömürlərini orta hesabla 5 il uzada bilərdilər. Yeni araşdırmanın müəllifləri bu nəticəyə gəliblər.

Müntəzəm idmanla məşğul olan insanlarda ürək xəstəlikləri, şəkərli diabet, depressiya, demensiya və bir sıra digər sağlamlıq problemləri riskinin daha az olması hər kəsə məlumdur.

Lakin "British Journal of Sports Medicine" jurnalında dərc edilən yeni təhlil fiziki fəaliyyətin uzunömürlülükdəki rolunu və əhalinin ən çox və ən az aktiv qrupları arasında fərqlərin nə qədər böyük olduğunu üzə çıxarıb.

Tədqiqat çərçivəsində alimlər 2003-2006-cı illər arasında 40 və daha yuxarı yaşlı amerikalı böyükləri fiziki aktivlik səviyyəsinə görə dörd qrupa ayırıb bir neçə il ərzində onların sağlamlığını izləyiblər.

Bu dövrdə ən aktiv insanların hər hansı səbəbdən ölmək ehtimalı ən az aktiv olanlara nisbətən 73 faiz az olub.

"Ölüm riskini yarıdan çox azaltmaq üçün yeganə edə biləcəyiniz - böyük gücə malik olan fiziki fəaliyyətdir", - deyə tədqiqatın aparıcı müəllifi və Avstraliyadakı Qriffit Universitetinin ictimai səhiyyə üzrə professoru Lennert Veerman bildirib.

Ən aktiv yetkinlər gündə iki saat 40 dəqiqə yeriməyə bərabər səviyyədə məşq edirdilər. Onlara yetişmək üçün ən az aktiv olan yetkinlər gündəlik rejiminə təxminən iki saat gəzinti əlavə etməli olacaqlar.

Lakin onlar bunu etsələr, orta hesabla 10,9 il daha çox yaşaya biləcəklər, bunu hesablamalar göstərir. Ən aktiv yetkinlər üçün bu, hər saat gəzinti əlavə 6,3 saat həyat deməkdir.

Veerman deyir ki, bir saatlıq gəzinti məşqindən "maksimum faydalanan" ən aktiv yetkinlər üçün çox da ciddi fərq olmayacaq.

Fiziki fəaliyyət səviyyəsinin artırılması ABŞ-da orta ömür müddətini 2017-ci ildəki 78,6 il ilə müqayisədə 83,7 yaşa qədər artırmağa imkan verərdi.

Tədqiqatçıların sözlərinə görə, əldə edilən nəticələr idmanın sağlamlıq üçün əhəmiyyətini vurğulayır. Bu amili yaşayış məntəqələrinin layihələndirilməsində nəzərə almaq lazımdır.

Veerman əmindir ki, şəhərləri gəzinti və velosiped sürmək üçün daha əlverişli hala gətirməklə, "biz nəinki ömrün uzunluğunu artıra, həm də səhiyyə sistemləri və ətraf mühitə olan yükü azalda bilərik".



*İdman*

## Azərbaycan Ağırlıqqaldırma Federasiyasının heyəti Bəhreyndə bir sıra görüşlər keçirib




Azərbaycan Ağırlıqqaldırma Federasiyasının (AAF) Bəhreyndə səfərdə olan nümayəndə heyəti bir sıra görüşlər keçirib.

AAF-dən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini Mariana Vasileva, Azərbaycan Ağırlıqqaldırma Federasiyasının prezidenti Kamran Nəbizadə və vitse-prezidenti Firdovsi Umudov, Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının prezidenti Məhəmməd Calud, həmçinin I vitse-prezidenti Ursula Papandrea, Avropa Ağırlıqqaldırma Federasiyasının prezidenti Antonio Konflitti və Bəhreyn Ağırlıqqaldırma Federasiyasının prezidenti Ebrahim Eshaqla bir araya gəliblər.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşlərdən sonra həmin şəxslərə Azərbaycan Ağırlıqqaldırma Federasiyası adından xüsusi hədiyyələr təqdim olunub.

## Azərbaycanın "U-19" yığmasının seçmə mərhələdəki rəqibləri müəyyənləşib

19 yaşadək futbolçulardan ibarət milli komandalar arasında Avropa çempionatının 2025/2026 mövsümü üzrə seçmə mərhələsinin püşkü atılıb.

AZƏRTAC xəbər verir ki, İsveçrənin Nyon şəhərində baş tutan püşkatma mərasimində Azərbaycan millisinin də rəqibləri müəyyənləşib. Komandamız 13-cü qrupda Çexiya, Şimali İrlandiya və Malta yığmaları ilə mübarizə aparacaq.

Seçmə mərhələnin oyunları 2025-ci ilin sentyabr, oktyabr və ya noyabr aylarında keçiriləcək.

## Komandamız 9-cu qrupda...

17 yaşadək futbolçulardan ibarət milli komandalar arasında Avropa çempionatının 2025/2026 mövsümü üzrə seçmə mərhələsinin püşkü atılıb.

AZƏRTAC xəbər verir ki, İsveçrənin Nyon şəhərində təşkil olunan püşkatma mərasimində Azərbaycan millisinin də rəqibləri müəyyənləşib. Komandamız 9-cu qrupda Fransa, İsrail və Rumıniya yığmaları ilə mübarizə aparacaq.

Matçlar 2025-ci il iyulun 1-dən noyabrın 18-dək keçiriləcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4800
Sifariş: 2818
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli